

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 may
2026-cı il,
cümə
№ 084 (7151)
Qiymәti
60 qәpik




## Azərbaycan - Slovakiya münasibətləri: strateji tərəfdaşlıq, yüksək siyasi əlaqələr...

Bax səh. 2

# Bu gün Zəngilandayıq...



## Şəhid atası ilə səmimi dialoq, insanların sonsuz minnətdarlığı

Bax səh. 3

## Cənubi Qafqaz reallığı...

### Qərarları Bakı və Ankara verir

Bax səh. 2



Bax səh. 4

## YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub

## WUF13: "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının təqdimatı gündəlikdə

Azərbaycanın ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) saylı günlər qalıb. Forum 17-22 may tarixində Bakıda keçiriləcək.

BMT-nin ən mühüm tədbirlərindən biri olan WUF13-ə ev sahibliyi hüququnun ölkəmizə həvalə edilməsi Azərbaycanın qlobal miqyasda artan rolunun əyani təsdiqidir. Beynəlxalq birlik respublikamızın hər cəhətdən müsbət reallıqlarını təqdirlə qarşılayır və müxtəlif istiqamətlərdə qazanılan milli təcrübənin dünyanın digər regionlarında da yayılmasına nail olmaq istəyir.

Bu mənada dünya ictimaiyyətinin WUF13-dən gözləntiləri...

Bax səh. 5



Bax səh. 4

## YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir

## Bakıda daha bir beynəlxalq tədbir...

### Paytaxtımızda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası keçirilib

Bax səh. 3

## Bank risklərinə qarşı model

### Stress-testlərin aparılması qaydası təsdiqlənib

Bax səh. 5

## ABŞ və Çinin "fantastik" gələcəyi...

Bax səh. 6



## NATO-nun gələcəyi sual altındadır?

Bax səh. 7

## Asiya İnkişaf Bankından "yaşıl investisiya"

Bax səh. 6





# Azərbaycan - Slovakiya münasibətləri: strateji tərəfdaşlıq, yüksək siyasi əlaqələr...

Azərbaycan beynəlxalq aləmdə yaxın tərəfdaşlığa üstünlük verən, qarşılıqlı maraqlar çərçivəsində əlaqələrin möhkəmlənməsinə səy göstərən ölkə kimi tanınmaqdadır. Xüsusilə, Azərbaycanın qətiyyəti ilə Cənubi Qafqazda formalaşan sülh prosesi, qlobal enerji təhlükəsizliyinə verdiyimiz töhfələr ölkəmizin müxtəlif qitələrdə yerləşən dövlətlərlə strateji əlaqələr qurmasında əsaslı ştrix kimi çıxış edir. Enerji sektorunda aparılan ardıcıl və məsuliyyətli siyasət ölkəmizin nüfuzunu daha da artırıb. Azərbaycan enerji bazarında heç vaxt qeyri-müəyyənlik yaradacaq addım atmayıb - qarşılıqlı maraqlar hər zaman əsas tutulub. Təsadüfi deyil ki, bu gün Avropa İttifaqı ölkələrinin Azərbaycanla əməkdaşlıq xətti, xüsusilə təbii qaz və yaşıl enerji sahələrində daha da güclənir.

Belə bir qarşılıqlı münasibətlərin inkişaf dinamizmi ikitərəli əlaqələrin güclənməsinə də rəvac verir - məsələn, Slovakiya-Azərbaycan əlaqələri artıq yeni məzmun qazanmaqdadır. Slovakiyanın Cənub Qaz Dəhlizinin final istifadəçilərindən biri kimi Azərbaycana olan marağı günü-gündən artır. Ölkəmizin enerji təhlükəsizliyinə verdiyi strateji dəstək Slovakiya tərəfindən yüksək qiymətləndirilir. Bununla yanaşı, iki ölkə arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq üçün də geniş imkanlar mövcuddur. Hazırki münasibətlər sistemi nin daha da irəliyə aparılması üçün hər iki tərəf mühüm addımlar atmaqda israrlıdırlar.

## Bakı-Bratislava münasibətləri yüksələn xətlə inkişaf edir

Mayın 13-də Azərbaycan Prezidenti İlham Əliyev Slovakiya Milli Şurasının sədri Rixard Raşinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu məsələ ön planda tutulub. Müxtəlif sahələri əhatə edən əməkdaşlığımızın inkişafını vurğulayan dövlətimizin başçısı qarşılıqlı hörmətə, dostluğa və tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin genişlənməsində parlamentlərimiz arasındakı münasibətlərin roluna toxunub. Prezident İlham Əliyev bu səfəri tərəfdaşlığımızın daha bir göstəricisi adlandırıb, regionda sülhün gücləndirilməsi üçün ölkəmiz tərəfindən görülən tədbirlərdən danışıb, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da daxil olmaqla ölkələrimiz arasında ticarət münasibətlərinin yaradıldığını deyib. Söhbət zamanı Azərbaycanla Slovakiya arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu vurğulanaraq, siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilib. Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında iştirakına toxunularaq, bunun Azərbaycan-Slovakiya dostluğunun göstəricisi olduğu vurğulanıb.

Yeri gəlmişkən, bir neçə gün öncə Slovakiya Baş naziri Robert Fitso sosial media hesabında yaydığı videoda ölkəmiz, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev haqqında danışmışdı. Bu zaman o, Azərbaycan dövlət başçısının Avropa Parlamenti ilə bağlı mövqeyini qeyd edərək bildirmişdi ki, "Prezident İlham Əliyev Avropa Parlamentinin yalan yaymaqdan, başqalarının işinə qarışmaqdansa, ilk növbədə Avropanın problemləri ilə məşğul olmalı olduğunu bildirərkən həqiqəti söylədi - bizim isə belə problemlərimiz kifayət qədər çoxdur".

Prezident İlham Əliyev də Slovakiyanın Baş naziri Robert Fitsonun sosial media hesabında Azərbaycan haqqında dediyi xoş sözlərlə əlaqədar özünün X səhifəsində paylaşım edib: "Əziz Robert, Azərbaycan haqqında söylədiyiniz həqiqi və dəyərli fikirlərə görə Sizə təşəkkür edirəm. Tərəfdaşlığımızı yüksək qiymətləndirirəm. Slovakiyaya səfərim zamanı göstərdiyiniz qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirirəm və Sizi tezliklə Bakıda görməyi səbirsizliklə gözləyirəm".

## Çoxşaxəli əlaqələr...

Qeyd edək ki, iki ölkə arasında diplomatik münasibətlər 23 noyabr 1993-cü ildə qurulub. 2019-cu ildən Slovakiyanın Azərbaycanda səfirliyi fəaliyyət göstərir. 2023-cü ilin iyulundan isə Azərbaycanın Slovakiyada səfirliyi təsis olunub. 2009-cu ildən Azərbaycanın Slovakiyadakı fəxri konsulluğu fəaliyyət göstərir.

Rəsmi şəxslərin qarşılıqlı səfərlərinə gəldikdə isə, Prezident İlham Əliyev 2004-cü ilin martında və ötən ilin dekabrında Bratislavada səfərdə olub. Slovakiyanın hazırki Prezidenti Peter Pelleqrini isə 2018-ci ilin noyabrında Baş nazir statusunda Bakıya səfər edib. Hazırki Baş nazir Robert Fitso isə 2024-cü ilin mayında Azərbaycanda rəsmi səfərdə olub. Səfər çərçivəsində iki ölkə arasında "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə" imzalanıb. Bundan başqa, "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında hərbi-texniki əməkdaşlıq sahəsində Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Slovakiya Respublikasının Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş"lər də imzalanıb. İki ölkə arasında iqtisadi əlaqələr geniş olmasa da, Slovakiya şirkətləri Azərbaycan iqtisadiyyatına investisiya yatırmaqda maraqlıdırlar. Eyni zamanda, Azərbaycan iş adamlarının da Slovakiyaya investisiya qoyması önəmli istiqamətlərdən biri olaraq qalır. Əməkdaşlıq perspektivi



olan bir digər sahə isə müdafiə sənayesi sahəsidir. Bu istiqamətdə birgə layihələrə imza atılması mümkündür - bununla bağlı müzakirələr belə reallaşıb. Qeyd edək ki, Slovakiya Ermənistan - Azərbaycan münaqişəsinin həllində beynəlxalq hüquqa əsaslanan yanaşmanı dəstəkləyib. Bu, münasibətlərdə qarşılıqlı etimad mühitinin güclənməsinə şərait yaradıb. 44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni vəziyyət Bratislava tərəfindən diqqətlə izlənilir və Slovakiya Azərbaycanla əməkdaşlığı daha da genişləndirməyə maraqlı olduğunu açıq şəkildə bildirir.

## Enerji sektoru əlaqlərin inkişafında əhəmiyyətli yer tutur

Enerji sektoru Azərbaycan-Slovakiya münasibətlərinin ən mühüm istiqamətlərindən biridir. Avropa İttifaqının enerji təhlükəsizliyi məsələsində fəal iştarak edən Azərbaycan Cənub Qaz Dəhlizinin əsas təchizatçısı kimi mühüm tərəfdaşa çevrilib. Slovakiya da enerji şaxələndirməsinə ehtiyacı olan ölkələr sırasında olduğundan, Azərbaycanla əməkdaşlıq burada xüsusi rol oynayır. Qeyd edək ki, Slovakiya uzun illər qaz təchizatında asılılıqlar səbəbindən enerji təhlükəsizliyi məsələlərini prioritet mövzusuna çevirib. 2022-ci ildən sonra Avropada baş verən geosiyasi dəyişikliklər qaz mənbələrinin dəyişikliyini zəruri edib. Bu dövrdə Azərbaycan Avropa üçün etibarlı və sabit təchizatçı kimi önə çıxıb. Avropaya qaz tədarükünün 2027-ci ilə qədər iki dəfə artırılması planları Slovakiya üçün də yeni imkanlar yaradır. Təsadüfi deyil ki, Azərbaycan Prezidentinin ötən ilin dekabrında Bratislavaya rəsmi səfəri çərçivəsində keçirilən geniş tərkibdə görüşdə çıxış edən Slovakiyanın dövlət başçısı Peter Pelleqri bildirmişdi ki, enerji təchizatı ilə bağlı Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb: "Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər".

Bunun qarşılığında isə Prezident İlham Əliyev qeyd etmişdi ki, 2024-cü ildə biz Slovakiyaya qaz təchizatına başladıq: "İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq".

Gələcəkdə Azərbaycan-Slovakiya enerji əməkdaşlığının yalnız qazla məhdudlaşmayacağı da proqnozlaşdırılır - "Yaşıl enerji" sahəsində Azərbaycanın böyük potensialı bu əməkdaşlığı daha da genişləndirə bilər. Beləliklə, enerji sektoru iki ölkə arasında əməkdaşlığın lokomotivi rolunu oynayır və yaxın illərdə bu sahədə daha dərin inteqrasiya gözlənilir.

***P.İSMAYILOV***

# Cənubi Qafqaz reallığı...

## Qərarları Bakı və Ankara verir

Azərbaycanın müəllifliyi ilə Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallıq bölgədə uzunmüddətli sülh və əməkdaşlıq imkanlarını artırır. İqtisadi layihələr, dövlətlərarası münasibətlərin normallaşması, ümumən bölgədə əməkdaşlıq mühitinin yaranması Cənubi Qafqaz üçün geniş imkanlar açır. Bununla belə, təəssüfləndirici haldır ki, bəzi ermənipərəst dairələr, hətta dövlətlər yenə də öz qeyri-adekvat mövqelərindən əl çəkmək istəmir, prosesə mümkün qədər maneə olmağa çalışırlar. Xüsusilə Fransanın son dövrlərdə sərgilədiyi mövqe bunu açıq şəkildə nümayiş etdirir. Bu ölkənin qanunverici orqanının, eləcə də Parisin arzusu ilə Avropa Parlamentinin Azərbaycana qarşı tutduğu mövqe onların bütün planlarını ifşa edir. Paraldel olaraq may ayının əvvəlində Fransa prezidenti Emmanuel Makronun Ermənistana etdiyi səfər çərçivəsində səsləndirdiyi bəyanatlar bir daha göstərdi ki, Paris Cənubi Qafqazda yenidən təsir imkanları qazanmağa çalışır. Makronun çıxışlarında Azərbaycana qarşı əsassız ittihamların yer alması, Ermənistanı birtərəfli şəkildə dəstəkləyən ritorikaya üstünlük verməsi Fransanın bölgəyə korporativ maraqlardan qaynaqlanan müdaxilə imkanlarına yenidən cəhd etmək niyyətində olduğunu göstərir.

## Fransanın bölgədəki proseslərə müdaxilə cəhdi iflasa uğradı...

## Bakı öz qətiyyətini Parisə göstərmişdi...

Xatırladaq ki, bir neçə il öncə də Fransanın bu kimi cəhdlərinin şahidi olmuşduq - Avropa Siyasi Birliyinin 2022-ci ildə Praqada baş tutan Sammitindən sonra Azərbaycan qəti şəkildə Parisin bu prosesdə iştirakını istəmədiyini bildirmişdi. 2022-ci ilin noyabrın 25-də ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxışında Prezident İlham Əliyev bildirmişdi ki, Fransa sülh danışıqlarında iştirak edə bilməz. Bu bizim deyil, onların günahıdır: "Praqa görüşündən bir həftədən də az sonra Fransa Prezidenti Makron müsahibəsində Azərbaycanı tənqid etdi və bizi törətmədiyimiz işlərdə ittiham etdi. Daha sonra Fransa Senatının tamamilə qəbuledilməz və təhqiredici məlum qətnaməsi qəbul olundu".

Dövlət başçısı qeyd etmişdi ki, "Bütün bunlar nəzərə alınsa, aydındır ki, Fransa sülh danışıqlarında iştirak edə bilməz. Bu bizim deyil, onların günahıdır".

Artıq situasiya da dəyişib - rəsmi Bakı açıq şəkildə bəyan edir ki, proses iki dövlət arasında, Azərbaycan və Ermənistan arasında gedir. Aparılan danışıqlarda əsas söz sahibi birbaşa tərəflərdir. Fransa isə bu prosesə yenidən daxil olmaq üçün müxtəlif siyasi manevrlərə əl atır. Makron administrasiyasının davranışları onu göstərir ki, Fransa regionda sabitliyin möhkəmlənməsindən daha çox öz geosiyasi maraqlarını təmin etməyə çalışır.

## Fransa prezidentinin ölkəsində belə olmayan "nüfuzu"...

Halbuki Paris rəhbərliyi ilk növbədə öz daxilində mövcud olan ciddi sosial, siyasi və iqtisadi problemlərlə məşğul olmalıdır. Fransada etiraz aksiyalarının davam etməsi, hökumətə qarşı ictimai narazılığın artması və Makronun nüfuzunun sürətlə aşağı düşməsi artıq beynəlxalq medianın da diqqət mərkəzindədir.

Makron hazırda öz ölkəsində ən aşağı siyasi reytinqlə fəaliyyət göstərən liderlərdən biri, bəlkə də birincisidir. Son illərdə Fransada pensiya islahatları, sosial bərabərsizlik, iqtisadi çətinliklər və miqrasiya problemləri səbəbindən hökumətə qarşı ciddi etiraz dalğaları baş qaldırıb. Küçələrdə aylarla davam edən aksiyalar, polis zorakılığı ilə bağlı yayılan görüntülər və ictimai narazılıq Makron hakimiyyətinin ciddi legitimlik böhranı yaşadığını göstərir. Bir çox siyasi dairələrdə artıq Makronun xalqın iradəsini tam şəkildə təmsil etmədiyi barədə fikirlər səsləndirilir. Belə bir vəziyyətdə Fransa prezidentinin diqqətini daxili problemlərdən yayındırmaq üçün xarici siyasətdə daha fəal görünməyə çalışdığı açıq hiss olunur. Ermənistana səfəri və burada Azərbaycana qarşı yönəlmiş açıqlamalar da məhz bu siyasətin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Makron daxildə zəifləyən nüfuzunu beynəlxalq platformalarda aktiv görünməklə kompensasiya etməyə çalışır. Lakin Fransa rəhbərinin bu cəhdləri nə region ölkələri, nə də beynəlxalq ictimaiyyət tərəfindən ciddi qəbul edilir.

## Makronun sərhəd planı baş tutmadı..

Makronun Ermənistana səfəri zamanı diqqət çəkən məqamlardan biri də onun Türkiyəyə quru sərhədi vasitəsilə keçmək istəyi ilə bağlı yayılan məlumatlar oldu. Bu addım sıradan diplomatik detal deyil, daha çox siyasi mesaj xarakteri daşıyırdı. Fransa prezidenti bu vasitə ilə regionda normallaşma proseslərinə təsir göstərən əsas aktorlardan biri kimi görünməyə çalışırdı. Lakin proseslərin inkişafı göstərdi ki, regionun əsas siyasi qərarları xarici güclərin deyil, məhz Azərbaycan və Türkiyə liderlərinin qətiyyətli mövqeyi əsasında formalaşır. Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığın əsas müəllifləridir. İki qardaş ölkənin ortaya qoyduğu siyasi iradə nəticəsində bölgədə yeni əməkdaşlıq platformaları yaranıb, kommunikasiyaların açılması və münasibətlərin normallaşdırılması istiqamətində ciddi addımlar atılıb.

Beləliklə, Makronun sərhəd məsələsi üzərindən siyasi dividend qazanmaq cəhdi nəticəsiz qaldı. Çünki Ankara və Bakı açıq şəkildə nümayiş etdirdi ki, regionun taleyi kənardan idarə oluna bilməz. Bu gün Türkiyə-Ermənistan münasibətlərinin normallaşması prosesi də




Azərbaycan faktorundan kənarda mümkün deyil. Fransa isə bu proseslərə təsir imkanına malik olmadığını qəbul etməlidir.

## Regionun siyasi gələcəyini Bakı və Ankara müəyyənləşdirir

Cənubi Qafqazda təhlükəsizlik, əməkdaşlıq və iqtisadi inteqrasiya məsələlərində əsas söz sahibi Azərbaycan və Türkiyədir. 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyət bölgədə qüvvələr balansını tamamilə dəyişib. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə yanaşı, regional proseslərin əsas təşəbbüskarına çevrilib. Türkiyə isə həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan Azərbaycanın ən yaxın strateji müttəfiqi kimi bölgədə sabitliyin əsas təminatçılarından biridir.

Fransa isə hələ də köhnə geopolitik yanaşmalarla hərəkət etməyə çalışır. Makronun müxtəlif simvolik addımlarla bölgədə rol almağa çalışması isə siyasi reallığı dəyişmir. Artıq Cənubi Qafqazın siyasi xəritəsi Bakı və Ankaranın formalaşdırdığı strateji əməkdaşlıq modeli üzərində qurulur və bu reallıq beynəlxalq aktorlar tərəfindən də qəbul edilir.

Bu gün bölgədə sülh və əməkdaşlıq perspektivlərini müəyyən edən əsas faktor regional dövlətlərin qarşılıqlı anlaşması və strateji tərəfdaşlığıdır. Xarici güclərin proseslərə müdaxilə cəhdləri isə əvvəlki effektini itirib. Fransa bunu nə qədər tez qəbul etsə, həm özü, həm də region üçün bir o qədər faydalı olar. Çünki Cənubi Qafqaz artıq yeni dövrə qədəm qoyub və bu dövrün əsas söz sahibləri regionun öz liderləridir.

***Pərviz SADAYOĞLU***

# Bu gün Zəngilandayıq...

## Şəhid atası ilə səmimi dialoq, insanların sonsuz minnətdarlığı

**Öz gücünə otuz illik işğala son qoyan, ərazi bütövlüyünü və suverenliyini hərbi-siyasi yolla tam təmin edən qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasında və məskunlaşdırılmasında da dünyaya nümunə göstərir. O cümlədən şanlı Zəfərimizin əsas memarı olan Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad ərazilərə müntəzəm səfərləri çərçivəsində yenidən qurulan Qarabağa, Şərqi Zəngəzura köç edən sakinlərlə görüşlərə qatılması gözəl bir ənənəyə çevrilib. Bu baxımdan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində baş tutan son səfərləri də istisna olmayıb. Belə ki, səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər. Eyni zamanda, Prezident İlham Əliyevin  Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşü və bu görüşdə Vətən Müharibəsi şəhidi Samir Sarıyevin atası Əli Sarıyevlə dialoqu baş tutub.**
**Bu görüşlər səmimilik şəraitində keçib. Azad ərazilərə köç edən sakinlər Prezident İlham Əliyevlə və birinci xanım Mehriban Əliyeva ilə yaxından ünsiyyət qurmaq, öz ürək sözlərini demək və xatirə fotoları çəkdirmək imkanı qazanıblar.**

### İşğala son qoyulmasını, qaçqın və məcburi köçkünlərin geri qayıtmalarını hamıdan çox Heydər Əliyev arzulayırdı...





Qeyd etdiyimiz kimi, dövlət başçısının və birinci xanımın işğaldan azad olunmuş ərazilərə bəhs olunan səfərləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsinə təsadüf edib. Burada Ulu Öndərin Ermənistanın havadarlarının dəstəyi ilə ötən əsrin doxsanıncı illərinin əvvəllərində ölkəmizə qarşı işğalçılıq müharibəsinə başlamasına, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə necə həssaslıqla yanaşdığını xatırlamamaq mümkün deyil. Heydər Əliyev yaranmış vəziyyətlə barışmırdı və işğala son qoyulmasını, qaçqın və məcburi köçkünlərin geri qayıtmalarını hamıdan çox arzulayırdı. Onun qəlbində həm də bu arzuların həyata keçəcəyinə böyük inam var idi. Ulu Öndər  həmişə Qarabağın əzəli Azərbaycan torpağı olduğunu vurğulayaraq, xalqın öz yurdlarına qayıdacağına olan inamını artırırdı.  Onun inamı xalqa güc verirdi, qaçqın və məcburi köçkün soydaşlarımızı həyata möhkəm bağlayırdı. Zəngilanda dövlət başçısı ilə görüşdə sakin Murad Rəhimov söz alaraq tədbirin ümummilli liderimiz Heydər Əliyevin anadan olduğu gündə baş tutmasının rəmzi məna daşıdığına diqqət çəkərək bildirib: “Ulu Öndərimizin Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısında xidmətləri misilsizdir, əvəzolunmazdır. Onun ən böyük arzularından biri işğal olunmuş torpaqların azad edilməsi, sakinlərin öz ata-baba yurdlarına qaytarılması idi”.

Böyük siyasətçi Heydər Əliyev üçün təcavüz faktının aradan qaldırılması, insanların doğma yurd yerlərinə qayıtmaları yalnız arzu deyildi. O həm də dövlət başçısı kimi öz məsuliyyətini dərk etməklə ölkənin ərazi bütövlüyünün təmin edilməsinin unikal strategiyasını işləyib hazırladı. Torpaqlarımızın işğalı qeyri-legitim yolla hakimiyyətə gəlmiş  AXC-”Müsavat” iqtidarının yarıtmaz siyasətinin nəticəsi olaraq baş vermişdi. Sakinlərlə görüşdə həmin çətin dövrə ekskurs edən Prezident İlham Əliyev vurğulayıb: “Onun Azərbaycana gəlməsindən əvvəl faktiki olaraq nizami ordumuz yox idi və Birinci Qarabağ müharibəsindəki məğlubiyyətimiz məhz buna görə idi. O vaxt ordumuza rəhbərlik edən şəxslər nəinki hərbi peşə nədir, onu bilmirdilər, hətta onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdü”.

Azərbaycan üçün çox çətin bir dönəmdə Heydər Əliyev Özünə xas olan müdrikliklə yol verilmiş səhvləri aradan qaldırdı, Azərbaycanın müstəqilliyini qorudu, qısa müddətdə vahid komandanlığa tabe olan ordu formalaşdırdı. Ulu Öndərin böyük səyləri və uzaqgörənliyi sayəsində atəşkəsə nail olunması Azərbaycana iqtisadiyyatını gücləndirmək və bu əsasda müasir ordu formalaşdırmaq imkanı qazandırdı. Sonrakı mərhələdə Prezident İlham Əliyev bu imkandan bəhrələnməklə Azərbaycan xalqına böyük qələbələrin sevincini və qürurunu yaşatdı. “Ulu Öndərin Azərbaycan tarixində həlledici rolu bizim yaddaşımızdan heç vaxt silinməyəcək. Onun siyasətini davam etdirərək bu gün bax, biz buradayıq, Zəngilandayıq”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Azad torpaqlar xalqımızın qəhrəmanlıq simvoludur

Şanlı zəfərlərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən, 23 saatlıq lokal xarakterli antiterror əməliyyatından sonra Azərbaycan cəmiyyətində belə bir yekdil fikir formalaşıb ki, azad torpaqlar xalqımızın qəhrəmanlıq simvoludur. Müqayisə apardıqda Azərbaycanın qələbələrinin miqyası daha aydın görünür. Sakinlərlə söhbətlərdə xüsusi olaraq vurğu edilib ki, heç bir dövlət ən azından son 80 ildə müharibələrdə respublikamız kimi mütləq Qələbə qazanmağa nail olmayıb. Biz ədalətli müharibə apararaq qalib gəlmişik ki, bu da sonsuz qürur mənbəyimizdir. Şükürbəylidə baş tutan görüşdə söhbətə qoşulan qadın sakin dövlət başçısına xitab edərək zəfərlərimizi belə dəyərləndirib: “Möhtərəm Prezident, Şah İsmayıl Xətaidən sonra Azərbaycanı hissə-hissə qoparıb dağıdıblar. Azərbaycanın torpağını geri qaytaran bir ali baş komandanımız, sərkərdəmiz olmayıb. Birinci dəfədir ki, biz əlimizdən alınan torpaqları geri qaytarmışıq”.

Bəli, şanlı zəfərlərimiz son 200 ildə qazandığımız ən böyük qələbələrdir və bu qələbələri heç kim bizə hədiyyə etməyib. Bu qələbələri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüşən Müzəffər Ordumuz qazanıb. Müharibə günlərində 300-dən çox yaşayış məntəqəsi bilavasitə döyüşlərdə işğaldan azad edilib. Bundan sonra düşmən müharibəni davam etdirməyin mənasız olduğunu anlayıb və onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qalıb. Müharibə günlərini xatırlayaq. Görüşlərdə vurğulandığı kimi, “Dəmir yumruq” milli gücün vəhdətinə çevrilmişdi. Bu vəhdət, sarsılmaz həmrəylik də haqq savaşında bizim mütləq qələbəmizi təmin etdi.

Dağıdıcılq, talançılıq, vəhşilik ermənilərin xislətindədir. Biz isə qurub-yaradan xalqıq. Bunu işğaldan azad edilmiş ərazilərin bərpasının timsalında bütün dünya görür. Bu gün xalqımız işğaldan azad olunmuş ərazilərin məskunlaşdırılmasının sevincini yaşayır. Bakıdan və digər ünvanlardan Qarabağa və Şərqi Zəngəzura tez-tez köç karvanları yola salınır. İnsanların torpaq həsrətinə son qoyulur. Bu, ifadəsi çətin olan bir hissdir. Doğma ev-eşiklərindən didərgin düşən insanlar təxminən otuz il ərzində yarımçıq tikililərdə, vaqonlarda, yataqxanalarda, çadırlarda çətin həyat sürüblər. İndi bunlar keçmişdir. Artıq qaçqın, məcburi köçkün soydaşlarımızın həyatında yeni bir dönəm başlayır. Görüşlərdə doğma torpaqlara qayıdan sakinlər onlara bu sevinci yaşadan Prezident İlham Əliyevə və Onun ən yaxın silahdaşı Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını ifadə ediblər.

### İnsanların yurd həsrətinə son qoyulur

Səfər çərçivəsində Prezident İlham Əliyevin Zəngilan şəhərində inşa edilmiş 104 mənzilli birinci yaşayış kompleksinin açılışında sakinlərə mənzillərin açarlarının təqdim olunması zamanı 44 günlük Vətən müharibəsi şəhidinin atası ilə  baş tutan dialoq diqqət çəkib və gündəm olub. Belə ki, Vətən Müharibəsi şəhidi Samir Sarıyevin atası Əli Sarıyev  dövlət başçısı ilə görüş zamanı özünü yaxşı hiss etmədiyini bildirib. Prezident İlham Əliyev Özünə xas olan həssaslıqla dərhal şəhid atasının yola salınması üçün göstəriş verib.

Sonradan Əli Sarıyev Prezidentlə görüş zamanı yaşananları KİV-ə danışaraq bildirib: “Prezident məni səhnəyə çağırdı. Salamlaşdıq. İlk sözü o oldu ki, harada döyüşüb? Bu haqda soruşanda mən çox həyəcan keçirdim. Özümü demək olar ki, itirdim, bir kəlmə də danışa bilmədim. Mənə qarşı çox yaxşı münasibəti oldu. Onun duyğulanması mənə çox təsir elədi”.

Bəli, ölkə vətəndaşlarına, xüsusən də müharibə iştirakçılarına, şəhid ailələrinə qayğı  Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən qırmızı xətt kimi keçir. Onların Zəngilanda, Şükürbəylidə sakinlərlə söhbət zamanı şəhidlərimizin  əziz xatirələrini necə böyük hörmət və  minnətdarlıq hissi ilə anmaları bunun daha bir təsdiqinə çevrildi.

***Mübariz ABDULLAYEV***

# Bakıda daha bir beynəlxalq tədbir...

## Paytaxtımızda Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası keçirilib

Mayın 14-də “Bakı Şəhərsalma Həftəsi” çərçivəsində Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyası keçirilib.

Tədbirə Latın Amerikası, Afrika, Asiya, Sakit okean hövzəsini əhatə edən ümumilikdə 114 ölkədən QHT təmsilçiləri qatılıb. Baş Assambleya müxtəlif panellərlə gün ərzində davam edib.

Açılış mərasimində Azərbaycanın bir sıra dövlət rəsmiləri də iştirak ediblər.

Bakıda Qlobal Cənubun QHT Platformasının institusional strukturu və operativ mexanizmləri haqqında çərçivə sənədi qəbul edilib.

BMT Azərbaycanın çoxtərəfliliyə, beynəlxalq əməkdaşlığa və qlobal səviyyədə inklüziv qarşılıqlı fəaliyyətin təşviqinə dəyişməz sadiqliyini yüksək qiymətləndirir.

Bu barədə BMT-nin Baş katibi Antonio Quterreşin BMT-nin Azərbaycandakı müvəqqəti rezident-əlaqələndiricisi İqor Qarafuliç tərəfindən Qlobal Cənub QHT Platformasının (Global South NGO Platform - GSNP) I Baş Assambleyasında oxunan müraciətində bildirilib.

Onun sözlərinə görə, sözügedən QHT platforması Qlobal Cənub ölkələrinin həmrəyliyi, dialoqu və tərəfdaşlığının mühüm mexanizmidir.

Müraciətdə həmçinin vurğulanıb ki, assambleyanın inklüziv şəhər inkişafına, iqlim dayanıqlığına və davamlı idarəetməyə diqqət yetirməsi Qlobal Cənub şəhərlərinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqla bağlı prosesdə üzləşdiyi reallıqları əks etdirir.

Bundan əlavə, baş katib birgə təşəbbüslərin təşviq edilməsinin, institusional əlaqələrin gücləndirilməsinin və vətəndaş cəmiyyətinin BMT platformalarında, o cümlədən COP və



WUF-da iştirakının genişləndirilməsinin vacibliyini qeyd edib.

“Azərbaycandakı BMT əməkdaşlığın gücləndirilməsinə, vətəndaş cəmiyyətinin imkanlarının genişləndirilməsinə yönəlmiş səyləri dəstəkləməyə hazırdır”, - müraciətdə bildirilib.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev “Bakı Şəhərsalma Həftəsi” çərçivəsində Qlobal Cənub QHT Platformasının ilk Baş Assambleyasında çıxışı zamanı deyib ki, bu platforma dialoq üçün bir məkan olmaqdan daha çoxdur. Bu, fəaliyyət qüvvəsidir. “Bu gün Bakıda Baş Assambleyanın keçirilməsi bu vizyonun reallığa çevrildiyinin açıq göstəricisidir. COP29-un uğuruna töhfə verən bütün QHT-lərə, könüllülərə, ekspertlərə və vətəndaş cəmiyyəti nümayəndələrinə səmimi təşəkkürümü bildirmək istərdim. Sizin rolunuz həqiqətən mühüm idi. İdeyaların və təkliflərin konsolidasiyasından Yaşıl Zonada və müxtəlif pavilyonlarda aparılan maarifləndirmə fəaliyyətlərinə qədər vətəndaş cəmiyyəti COP29 prosesi zamanı etimad, dialoq və inklüzivliyin qurulmasında mühüm töhfə verib.

Platformanın I Baş Assambleyası zamanı Qlobal Cənubun QHT Platformasının institusional strukturu və operativ mexanizmləri haqqında çərçivə sənədi qəbul edilib.

İclasda çərçivə sənədi üzərində işin uğurla başa çatdırıldığı qeyd olunub. Sənəd iştirakçı təşkilatlar tərəfindən bəyənilib və platformanın idarəetmə strukturunu, eləcə də fəaliyyətini müəyyən edən əsas normativ akt kimi rəsmi şəkildə qəbul edilib.

Sənəd həmçinin Baş katibin və onun müavininin seçilməsini, təyin olunmasını təsdiq edir. Onlar müəyyən edilmiş reqlamentə uyğun olaraq öz vəzifələrinin icrasına rəsmən başlayacaqlar.

Bundan əlavə, Baş Assambleya tərəfindən işçi qruplarına platformanın tam fəaliyyətə başlamasını təmin etmək üçün yaxın aylarda əməliyyat təkliflərini hazırlamaq və işə salmaq tapşırılıb.

Toplantıda Qlobal Cənub QHT Platformasında (Global South NGO Platform - GSNP) katibliyin Azərbaycana keçməsi haqqında qərar qəbul edilib. Seçkiyə əsasən, Fuad Kərimli GSNP-nin Baş katibi seçilib. Bununla da Azərbaycan GSNP-nin I Baş Assambleyasında təşkilata 5 il rəhbərlik edəcək. Həmçinin onun Latın Amerikası, Afrika, Asiya və Sakit okean hövzəsi regionlarını əhatə edən bölgələr üzrə 4 müavini seçilib.

# YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasına səfəri çərçivəsində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysin ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənərək hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlərin hər iki ölkənin maraqlarına cavab verdiyi vurğulanıb.

Azərbaycan ilə Çinin müstəqil siyasət yürüdən dost ölkələr kimi bir-birinin mənafelərinin qorunmasına xüsusi diqqət yetirdikləri bildirilib. Beynəlxalq hüququn təməlində dayanan ərazi bütövlüyü və suverenlik prinsiplərini əsas götürən Azərbaycanın Vahid Çin siyasətinə qətiyyətli dəstəyinin əhəmiyyəti vurğulanıb. Öz növbəsində, Birləşmiş Millətlər Təşkilatının beş daimi üzvündən biri olan Çinin Azərbaycanın ədalətli mövqeyini müdafiə etməsinin etibarlı tərəfdaşlıq örnəyi kimi böyük dəyərə malik olduğu qeyd edilib.

Yüksəksəviyyəli siyasi dialoq və intensiv diplomatik təmaslar fonunda iqtisadi-ticari, nəqliyyat-logistika, energetika, o cümlədən yaşıl enerji, elm, təhsil, innovativ texnologiyalar, mədəni, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsinin strateji prioritet kimi dövlət başçılarının xüsusi diqqət mərkəzində olduğu bildirilib.

Çinin qlobal əhəmiyyətli "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olan Azərbaycanın Asiya ilə Avropa arasında əlverişli coğrafi mövqeyindən və tranzit imkanlarından səmərəli istifadənin Orta Dəhlizin inkişafına təkan verdiyi vurğulanaraq ölkəmizin Zəngəzur dəhlizi layihəsinin yeni platforma kimi Avrasiyada dayanıqlı sülhə, etibarlı təhlükəsizliyə və çoxtərəfli işbirliyinə hədəfləndiyi qeyd olunub.

Çoxqütblü dünya nizamına transformasiya şəraitində Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında əlaqələrin inkişafı baxımından əlamətdar olmadığı, eyni zamanda, Avrasiyada, o cümlədən Qlobal Cənub coğrafiyasında davamlı və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi üçün mühüm əhəmiyyət daşıdığı bildirilib.

Beynəlxalq hüququn böhranı fonunda Azərbaycanın Cənubi Qafqazda həyata keçirdiyi sülh quruculuğunun önəminə diqqət çəkilib.

Görüşdə nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmi vurğulanıb.

2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyəti diqqətə çatdırılaraq məqsədyönlü birgə fəaliyyətin ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsinə və müştərək maraqların təmininə xidmət etdiyi bildirilib. Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

# YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir







Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Partiya Məktəbinin birinci prorektoru, nazir Si Çuntao ilə görüşü keçirilib.

Görüşdə iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin bugünədək uğurla yerinə yetirildiyi, qarşılıqlı hörmət və etimada əsaslanan səmərəli işbirliyinin inamla davam etdirildiyi bildirilib.

İstər Azərbaycan, istərsə də Çində gənclərlə siyasi-ideoloji işin xüsusi diqqət mərkəzində saxlanıldığı qeyd edilib. Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüş zamanı Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə ÇKP MK Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib. Memorandumu ÇKP MK Partiya Məktəbinin birinci prorektoru Si Çuntao və DİA-nın rektoru, akademik Urxan Ələkbərov imzalayıblar.

Memorandumda əksini tapmış müddəaların icrasının tərəflər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə təcrübə mübadiləsini təmin etməklə dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində mühüm nailiyyətlərə yol açacağına inam ifadə olunub.

Nümayəndə heyətinin Çin Sosial Elmlər Akademiyasının vitse-prezidenti, nazir Pin Cinhuy ilə görüşündə isə hər iki ölkədə elm və təhsilin inkişafının dövlət siyasətinin əsas prioritetlərindən biri olduğu vurğulanıb, bu istiqamətdə beynəlxalq əməkdaşlığın önəminə diqqət çəkilib. Elmi-tədqiqat institutları arasında əlaqələrin genişləndirilməsi, birgə araşdırmaların aparılması, akademik mübadilə proqramlarının təşviqi, eləcə də sosial elmlər sahəsində qarşılıqlı təcrübə paylaşımının artırılması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Bundan sonra YAP nümayəndə heyətinin Çin Arxeoloji Muzeyinə ekskursiyası təşkil edilib. Sosial Elmlər Akademiyasının vitse-prezidenti Cao Ruy ilə keçirilən görüşdə tarix elminin qarşılaşdığı yeni çağırışlar fonunda rəqəmsallaşma və süni intellekt texnologiyalarının elmi-tədqiqat prosesinə inteqrasiyası, tarixi irsin qorunması, elmi nəşrlərin qarşılıqlı mübadiləsi, ortaq layihələrin hazırlanması, eləcə də alimlər və tədqiqatçılar arasında birbaşa əlaqələrin qurulması istiqamətində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Səfər çərçivəsində nümayəndə heyəti Konfutsi məbədini də ziyarət edib.







# WUF13: "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının təqdimatı gündəlikdə




Azərbaycanın ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) saylı günlər qalıb. Forum 17-22 may tarixində Bakıda keçiriləcək.

BMT-nin ən mühüm tədbirlərindən biri olan WUF13-ə ev sahibliyi hüququnun ölkəmizə həvalə edilməsi Azərbaycanın qlobal miqyasda artan rolunun əyani təsdiqidir. Beynəlxalq birlik respublikamızın hər cəhətdən müsbət reallıqlarını təqdirlə qarşılayır və müxtəlif istiqamətlərdə qazanılan milli təcrübənin dünyanın digər regionlarında da yayılmasına nail olmaq istəyir.

Bu mənada dünya ictimaiyyətinin WUF13-dən gözləntiləri böyükdür. Respublikamızda şəhərsalmanın qədim tarixi var. Ölkəmiz ənənələri davam etdirməklə həmçinin Qarabağ və Şərqi Zəngəzurun timsalında müasir yanaşmalar əsasında ərazilərin sıfırdan yenidən qurulmasında yaxşı təcrübə qazanıb. WUF13 çərçivəsində bütün bunları bölüşmək imkanı yaranacaq.

## WUF13-ün aktual gündəliyi

BMT tərəfindən 2001-ci ildə təsis edilən Ümumdünya Şəhərsalma Forumu sürətli urbanizasiya nəticəsində şəhərlərdə yaranan çağırış və problemlərin müzakirəsi məqsədilə keçirilir. Forumun əsas koordinatoru BMT-nin Məskunlaşma Proqramıdır (UN-Habitat). İki ildən bir təşkil olunan forumda həmin dövr üçün aktual hesab edilən məsələlər müzakirəyə çıxarılır. WUF13 Azərbaycan Əməliyyat Şirkətinin Substantiv Məzmun üzrə şöbə müdiri Cəmilə İsmayılzadə bildirib ki, ölkəmizin ev sahibliyi ilə təşkil olunan WUF13 üçün aktual gündəlik müəyyənləşdirilib. Belə ki. Forumun əsas mövzusu "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri"dir. Mövzu əsasən mənzil təminatı ilə bağlı problemləri əhatə edir. Qurum rəsmisinin sözlərinə görə, hazırda dünyada 3 milyarda yaxın insan mənzil təminatında çətinliklə üzləşir, 1 milyarddan çox insan qeyri-formal yaşayış məntəqələrində və gecəqondularda yaşayır. Eyni zamanda, münaqişələr, böhranlar və təbii fəlakətlər nəticəsində öz evlərini itirənlərin sayı artır. Bu kimi problemlər şəhərlərdə təhlükəsizlik, iqtisadi sabitlik və sağlamlıq məsələlərini risk altında qoyur. Məhz buna görə də şəhərsalma üzrə qərarverici şəxslər, ekspertlər, beynəlxalq təşkilatların nümayəndələri bu məsələləri müzakirə etmək üçün Bakıda toplaşacaqlar.

WUF13-ün digər forumlardan əsas fərqi onun açıq və inklüziv xarakter daşımasıdır. Forumda dövlət nümayəndələri ilə yanaşı, vətəndaş cəmiyyəti təşkilatları, biznes nümayəndələri və akademik dairələri təmsil edən ekspertlər iştirak edə biləcəklər. Tərəfdaş tədbirləri adlanan kateqoriya üzrə təşkil ediləcək 350-dən çox tədbirin təşkilatçıları da məhz həmin sektorları təmsil edən qurumlardır. Bu isə tərəfdaşların tədbirin məzmununun formalaşdırılmasında birbaşa iştirak etməsi deməkdir. Forum çərçivəsində keçiriləcək assambleya və dəyirmi masalar müxtəlif maraq qruplarını əhatə edəcək. Qadınlar, gənclər, əlilliyi olan şəxslər, biznes nümayəndələri və peşəkar birliklər üçün ayrıca platformalar yaradılacaq. Bu sessiyalar həmin qrupların problemlərini və təkliflərini beynəlxalq səviyyədə səsləndirməsinə imkan verəcək.

"Azərbaycan burada həqiqətən mühüm rol oynayır. İlk növbədə, Azərbaycan həm regional, həm də qlobal tərəfdaşları bir araya gətirir. İlk dəfə olaraq Bakıda Liderlər Sammiti keçiriləcək və burada yüksəksəviyyəli iştirakın təmin olunması bizim üçün strateji əhəmiyyət daşıyır. Biz yaxın zamanda Şərqi Avropaya və Mərkəzi Asiyaya həsr olunmuş yeni UN-Habitat ofisi açmışıq və bu ofis İstanbulda yerləşir. Buna görə də regiondakı tərəfdaşlıqlarımızın gücləndirilməsi bizim üçün strateji baxımdan vacibdir. Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun hazırlıq prosesində çox yaxşı həmsədr və tərəfdaş olub. Eyni zamanda, Forumun Bakıda keçirilməsi və iştirakçıların Azərbaycanın gözəl paytaxtında qəbul olunması bu mühüm konfransa xüsusi dəyər qatır", - deyə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bildirib.

## Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən yanaşmalar müasir urbanistik prinsiplərə əsaslanır

Hazırda dünyanın ayrı-ayrı regionları amansız müharibələrin fəsadları ilə üz-üzədir. Qəzzada bütöv şəhərlər, kəndlər tamamilə dağıdılıb, minlərlə insan evsiz-eşiksiz qalıb. Ukraynada, İranda, Livanda oxşar vəziyyət hökm sürür. Aydın məsələdir ki, bütün müharibələr nə vaxtsa sülhlə yekunlaşır. Müharibə səhifəsi bağlandıqdan sonra isə ərazilərin bərpası, zəruri infrastruktur yaradılması və qaçqınların geri qaytarılması mərhələsi başlayır. Bu sahədə Azərbaycanın təcrübəsi unikaldır. Təxminən 30 il ərzində işğal faktından əziyyət çəkən respublikamız ərazi bütövlüyünü və suverenliyini sırf öz gücü ilə təmin etməyə nail olub. Çoxları elə güman edirdilər ki, müharibədən çıxan Azərbaycan güc, resurs itirib. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası posesi uzun müddət təxirə salınacaq. Ancaq belə olmadı. Azərbaycan dövləti və xalqı doğma torpaqlara bağlılığının təsdiqi olaraq işğaldan azad olunmuş ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. O cümlədən "Böyük Qayıdış" proqramının reallaşdırılması ölkənin beş milli prioritetindən biri kimi müəyyənləşdirildi.

Aradan cəmi beş il ötəndən sonra Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. "Böyük Qayıdış"a dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə - 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanıb.

Qalib Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin bərpası və məskunlaşdırılması sahəsində qazandığı təcrübə dünya üçün unikal nümunədir və biz təcrübəmizi bölüşməyə hazırıq. Bu baxımdan WUF13 genişş imkanlar yaradacaq. Cəmilə İsmayılzadə bildirib ki, Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən layihələrin, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının təqdimatı da bizim qarşımızda duran əsas prioritetlərdən biri olacaq. Həmin ərazilərdə həyata keçirilən layihələr şəhərsalma sahəsində mühüm təcrübə hesab olunur. Çünki burada tətbiq edilən yanaşmalar həm bir-birindən fərqlənir, həm də müasir urbanistik prinsiplərə əsaslanır. Bəzi ərazilərdə tam dağıdılan yaşayış məntəqələrinin yenidən qurulması, bəzi bölgələrdə isə mədəni irsin qorunması ilə paralel bərpa işlərinin aparılması fərqli yanaşmaların tətbiqini tələb edib. Azərbaycan bu istiqamətdə uğurlu təcrübə formalaşdırıb. Eyni zamanda, ağıllı və yaşıl texnologiyaların tətbiqi, ekoloji tikinti metodlarından istifadə də diqqətçəkən yeniliklər sırasındadır. Bu təcrübələrin təqdimatı bir neçə istiqamətdə həyata keçiriləcək. "Böhrandan sonrakı bərpa və quruculuq proseslərində mənzil təminatı" mövzusunda keçiriləcək dialoqda Azərbaycan hökuməti iştirak edəcək. Bununla yanaşı, Azərbaycan pavilyonunda işğaldan azad olunan ərazilərə xüsusi bölmə ayrılacaq və həyata keçirilən layihələr nümayiş etdiriləcək. "Təcrübə mərkəzi" platformasında isə həmin bölgələrdə həyata keçirilən uğurlu təcrübələr paylaşılacaq. Beləliklə, Azərbaycan işğaldan azad olunan ərazilərdə formalaşdırdığı şəhərsalma təcrübəsini beynəlxalq ictimaiyyətə geniş şəkildə təqdim edəcək.

*Mübariz FEYİZLİ*

# Bank risklərinə qarşı model

## Stress-testlərin aparılması qaydası təsdiqlənib




Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə "Banklarda stress-testlərin aparılması Qaydası" təsdiqlənib. Yeni qaydalar banklarda risklərin qiymətləndirilməsi, stress-testlərin təşkili, modellərin hazırlanması və nəticələrin qiymətləndirilməsi mexanizmlərini müəyyən edir. Tələblərə əsasən, banklar risk profilinə mənfi təsir göstərə biləcək hadisələrin müəyyənləşdirilməsi və qiymətləndirilməsi məqsədilə stress-testlər aparmalı, nəticələr əsasında isə tədbirlər planı hazırlamalıdır. Stress-testlər risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələr tərəfindən digər aidiyyəti bölmələrlə birgə hazırlanacaq, İdarə Heyəti ilə razılaşdırıldıqdan sonra isə Müşahidə Şurası və Riskləri İdarəetmə Komitəsi tərəfindən təsdiqlənəcək.

**Maliyyə dayanıqlılığını qiymətləndirmək məqsədilə...**

Stress-test bank və maliyyə sistemində bankların, gözlənilməz və ya ekstremal iqtisadi və maliyyə şərtlərdə (məsələn, iqtisadi resessiya, kəskin faiz artımı və ya maliyyə bazarlarında şoklar) dayanıqlığını qiymətləndirmək üçün istifadə edilən təhlil və qiymətləndirmə metodudur. Beynəlxalq təcrübədə Mərkəzi banklar maliyyə qurumlarının mövcud risklərini və potensial zəif tərəflərini müəyyənləşdirmək üçün bu, vacib tənzimləmə alətindən istifadə edir və bütün zəruri məlumatları öyrənir. Bu dəyərləndirmə nəticəsində bank və maliyyə qurumlarının kapital səviyyəsi və likvidlik mövqeyi tam müəyyən edilir, xüsusilə də sistem əhəmiyyətli bank qurumlarının uğursuzluğunun qarşısını almaq və maliyyə sisteminin bütövlüyünü təmin etmək mümkün olur. Nəticədə stress- testlərinin nəticələri əsasında bankların rəhbərlərinə risklərin idarə olunması üçün daha yaxşı qərarlar qəbul etmək fürsəti verilir.

Azərbaycanın bank sistemində aparılacaq stress-testlərə əsasən, bankın fəaliyyət xüsusiyyətləri, risklərin miqyası, bazar və makroiqtisadi şəraitdə baş verən dəyişikliklər nəzərə alınmaqla müəyyən ediləcək. Testlərin nəticələri bankın strateji planlaşdırılması, risk iştahası, daxili siyasəti və limitlərinin formalaşdırılmasında istifadə olunacaq.

Azərbaycan bank sisteminin stress-test modellərində, həmçinin, iqtisadi, maliyyə və statistik nəzəriyyələrə əsaslandırılmış təhlillər də aparılacaq. Modellərin statistik və iqtisadi baxımdan etibarlı olması, iqtisadi göstəricilər arasındakı əlaqələrin məntiqə uyğun şəkildə nəzərə alınması tələb olunur. Həmçinin, stress-testlərin hazırlanması zamanı ekonometrik modellərdən istifadə edilməli, modellər müxtəlif iqtisadi dövrlər və ssenarilər üzrə yoxlanılmalıdır. Makroiqtisadi göstəricilərin bankın risk profilinə təsiri də proqnozlaşdırılmalıdır.

**Banklarda həssaslıq təhlilləri aparılacaq**

Banklar, eyni zamanda, portfel və ya ümumi bank səviyyəsində həssaslıq və ssenari təhlilləri aparmalıdır. Həssaslıq təhlilləri risk amillərinin banka təsirini ölçmək məqsədi daşıyır. Bu çərçivədə faiz dərəcələrinin dəyişməsi, likvid aktivlərin dəyərinin azalması, iri tərəfdaşların iflası və digər şoklar qiymətləndirilə bilər. Ssenari təhlilləri isə "çox əlverişsiz", "əlverişsiz" və "ehtimal olunan" ssenarilər üzrə həyata keçiriləcək. Təhlillərdə həm tarixi məlumatlar, həm də hipotetik hadisələr nəzərə alınacaq.

**"Bottom-up" testləri nə məqsəd daşıyır?**

Qaydalarda "bottom-up" (aşağıdan yuxarı) stres-testlərinə dair tələblər də yer alıb. "Bottom-up" testləri, proqram təminatı və ya bank stress-testlərində əsas modullardan başlayaraq sistemin daha üst, kompleks səviyyələrinə doğru irəliləyən bir yoxlama metodudur. Bu yanaşmada alt səviyyə komponentlər əvvəlcə ayrıca test edilir, sonra isə inteqrasiya olunaraq yuxarıya doğru testlər davam etdirilir. Bu cür testlər sistem əhəmiyyətli olduqda yarımillik, digər hallarda isə illik əsasda həyata keçirirlər. Üstünlüyü isə bank sistemində xətaların tez tapılmasına kömək edir və sistemin möhkəm olmasını təmin edir.

Tələblər çərçivəsində banklar minimum olaraq likvidlik, kredit, bazar və əməliyyat riskləri üzrə stress-testlər də keçiriləcək. Likvidlik riski üzrə testlərdə bazardakı vəziyyət, kredit və digər risklər nəzərə alınacaq. Kredit riski üzrə təhlillərdə kredit portfelinin xüsusiyyətləri, təminat qismində çıxış edən qiymətli kağızların dəyərinə təsir göstərə biləcək hadisələr də qiymətləndiriləcək. Əməliyyat riskləri üzrə stres-testlərdə iqtisadi böhran dövründə bankdaxili dələduzluq hallarının artması kimi risklər də nəzərə alınmalıdır. Bazar riski üzrə təhlillərdə isə faiz dərəcələri, valyuta məzənnələri, qiymətli kağızların və əmtəələrin qiymətlərindəki dəyişikliklərin banka təsiri qiymətləndiriləcək.

Həmin sxem üzrə MB hər il dekabrın 30-dək illik, iyunun 30-dək isə yarımillik stres-testlər üçün makroiqtisadi proqnozları banklara təqdim edəcək. Sistem əhəmiyyətli banklar "bottom-up" stres-testlərini yarımillik və illik əsasda, digər banklar isə illik əsasda həyata keçirməli olacaq. İllik stres-testlərin nəticələri və tədbirlər planı makroiqtisadi proqnozlar 45 təqvim günü ərzində Mərkəzi Banka təqdim ediləcək.

"Bottom-up" testləri zamanı kredit portfelinin məqsədli şəkildə kiçildilməsi, aktivlərin risk qrupunun yaxşılaşdırılması və ya əlverişsiz ssenarilərdə gəlirlərin süni artırılması kimi hallara yol verilmir. MB tərəfindən təqdim edilən nəticələr 30 təqvim günü ərzində qiymətləndiriləcək və nəticələr risk-əsaslı nəzarət prosesində nəzərə alınacaq.

Beləliklə, bank sektorunda aparılacaq stress-testlər nəticəsində bank kapitalının şoklara dözümlüyü, şoklar nəticəsində bankın məruz qaldığı maksimum zərər və bankın fəaliyyətindəki digər boşluqlar müəyyən ediləcək, yarana biləcək risklərin qarşısının alınması üçün tədbirlər planı hazırlanacaq. Bu isə bankların potensial kapital çatışmazlığının aradan qaldırılmasında mühüm rol oynayacaq.

*E.CƏFƏRLİ*



# ABŞ və Çinin "fantastik" gələcəyi...

## Donald Trampın Pekinə səfəri əlaqələrə necə təsir edəcək?

Hazırda dünyanın gündəmində olan əsas mövzulardan biri ABŞ Prezidenti Donald Trampın Çin Xalq Respublikasına dövlət səfəridir. Dünyanın iki böyük və bir-birinə əks qütbdə olan bu ölkələrin liderlərinin görüşü beynəlxalq ictimaiyyətin diqqətindədir.

Rəsmi qarşılama mərasimində əvvəlcə ev sahibi Si Cinpin Pekinin mərkəzindəki Böyük Xalq Zalının qarşısında Prezident Trampı salamlayıb. Daha sonra iki lider dövlət himnlərinin müşayiəti altında fəxri qarovul dəstəsinin yanından keçib. Tramp dövlət rəsmiləri və ABŞ şirkətlərinin vəzifəli şəxslərindən ibarət nümayəndə heyətini Cinpinə təqdim edib.Daha sonra tərəflər görüş üçün Böyük Xalq Zalına yollanıblar. Görüşdə müzakirələr əsasən ticarət və investisiya istiqamətində olub, eyni zamanda, Yaxın Şərqdəki vəziyyət də diqqət mərkəzində saxlanılıb. Görüşdə "Tesla" və "Apple" də daxil olmaqla, ABŞ-ın bir neçə böyük şirkətinin rəhbərləri də iştirak edib. Məlumatlara görə, danışıqlar iki saatdan bir qədər çox davam edib.

### Tramp Tayvanla bağlı suala cavab verməyib

Bununla belə, görüşdə ciddi fikir ayrılıqları barədə məsələlərə də toxunulub. Çin lideri Si Cinpin Donald Trampa Tayvanla bağlı fikir ayrılıqlarının münasibətləri təhlükəli bir yola yönəldə və hətta münaqişəyə səbəb ola biləcəyi barədə xəbərdarlıq edib. "Reuters" agentliyi xəbər verir ki, Çin liderinin Tayvanla bağlı açıqlamaları dostcasına və rahat görünən, habelə Donald Trampın bəlkə də "tarixin ən böyük zirvə görüşü" adlandırdığı danışıqlarda kəskin, lakin görünməmiş bir xəbərdarlıq olub.

ABŞ Prezidenti isə ÇXR Sədri ilə fotoşəkil çəkdirən zaman jurnalistlərin Tayvanla bağlı suallarına cavab verməyib. Liderlər fotoşəkil çəkdirmək üçün "Tiantan" məbədində dayanıblar. Bu zaman jurnalistlər görüşdə Tayvan məsələsinin müzakirə olunub-olunmadığı barədə Donald Trampa sual veriblər. Sualı cavabsız qoyan ABŞ Prezidenti üzünü çevirərək mətbuat nümayəndələrindən uzaqlaşıb.

Ümumiyyətlə, Ağ Ev rəhbərinin Çinə səfəri dünya iqtisadiyyatının iki nəhəngi arasındakı rəqabəti də yenidən gündəmə gətirib. "Euronews" telekanalı xəbər verir ki, 2017-ci ildən bəri ilk dəfə Pekinə səfər edən Trampın bu görüşü həm iqtisadi, həm də texnoloji liderlik uğrunda gedən mübarizənin kəskinləşdiyi bir dövrə təsadüf edir. Hazırkı rəqəmlər hər iki ölkənin qlobal gücünü fərqli tərəflərdən nümayiş etdirir. Belə ki, 2026-cı il proqnozlarına görə, ABŞ-ın iqtisadiyyatı 30 trilyon ABŞ dolları, Çinin iqtisadiyyatı isə 20 trilyon ABŞ dolları keçəcək. Çin iqtisadiyyatı 2017-ci ildən bəri orta hesabla 5,48 faiz böyüyərək, ABŞ-dan (2,5 faiz) iki dəfə daha sürətli inkişaf edib. Adambaşına düşən gəlirdə ABŞ 94 min ABŞ dolları ilə Çini (15 min ABŞ dolları) xeyli qabaqlayır.

Səfərdə Trampı İlon Mask ("Tesla"), Tim Kuk ("Apple") və Censen Huanq ("Nvidia") kimi texnologiya nəhəngləri müşayiət edir. Hər iki ölkə müdafiə sahəsinə kifayət qədər böyük vəsait ayırır. ABŞ-ının illik hərbi büdcəsi 1 trilyon ABŞ dolları keçdiyi halda, Çinin müdafiə xərcləri 336 milyard ABŞ dolları civarındadır. Çin 3,2 trilyon ABŞ dollar ilə dünyanın ən böyük valyuta ehtiyatına sahibdir və son 18 aydır fasiləsiz olaraq qızıl ehtiyatlarını artırır. ABŞ isə dollarıın qlobal ticarətdəki hakim mövqeyindən faydalanmağa davam edir.

### Si Cinpin: Ortaq maraqlarımız fikir ayrılıqlarından daha çoxdur

Görüşdə Çin Xalq Respublikasının Sədri Si Cinpin 2026-cı ilin Çin-ABŞ münasibətləri üçün tarixi və əlamətdar il olacağına ümid etdiyini bildirib. Onun sözlərinə görə, Çin və ABŞ zamanın suallarına birgə cavab verməlidirlər. "Çinin və ABŞ-ın ortaq maraqları fikir ayrılıqlarından daha çoxdur", - deyən Çin lideri əlavə edib ki, tərəflərin birinin uğuru digəri üçün fürsətdir, sabit ikitərəfli münasibətlər isə dünya üçün yaxşıdır. O qeyd edib ki, Çin və ABŞ rəqib deyil, tərəfdaş olmalıdır:"İki ölkə bir-birinə uğur qazanmaqda və inkişafda kömək etməli, eləcə də yeni dövrdə bir-biri ilə yaxşı yola getməsi üçün düzgün istiqamət tapmalıdır".

Görüşdə Donald Tramp isə deyib ki, ABŞ-ın və Çinin birlikdə "fantastik" gələcəyi olacaq. O, Cinpini əla lider adlandırıb. Tramp amerikalı iş adamlarının Çinlə ticarət etməyini və biznes qurmağı səbirsizliklə gözlədiklərini bildirib. "Bunun bəlkə də indiyə qədər ən böyük zirvə görüşü olduğunu deyənlər var. Sizin dostunuz olmaq şərəfdir. Çin və ABŞ arasında münasibətlər hər zamankından daha yaxşı olacaq", - deyə Tramp əlavə edib. O, Vaşinqtonun Çinlə ticarəti qarşılıqlı prinsip əsasında aparmaq niyyətində olduğunu bildirib. Tramp qeyd edib ki, Çinə səfər edən nümayəndə heyətinin tərkibinə Amerikanın iri şirkətlərinin rəhbərləri də daxildir: "Dünyanın ən yaxşı 30 şirkətinə müraciət etdik. Onlar sizə və Çinə hörmət göstərmək üçün buradadırlar, ticarət etməyə və bizneslə məşğul olmağa can atırlar". ABŞ lideri həmçinin əlavə edib ki, danışıqlardan əhəmiyyətli nəticələr gözləyir.

### Səfər dünya enerji bazarına təsir edə bilər

Beynəlxalq ekspertlər ABŞ Prezidenti Donald Trampın Çinə səfəri zamanı qarşılıqlı əməkdaşlıq əlaqələrinin müzakirə olunması ilə yanaşı Hörmüz boğazının bağlı qalması və onun dünya iqtisadiyyatına təsirlərinin xüsusi diqqət mərkəzində olduğunu düşünürlər. Londonun ICE birjasında "Brend" markalı neftin bir barelinin qiyməti 0,51 dollar artaraq 106,14 dollar olub. Nyu-Yorkun birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,52 dollar artaraq 101,54 dollar təşkil edib. Azərbaycanın "Azeri Light" markalı neftinin bir barelinin qiyməti isə 0,41 dollar və ya 0,4 faiz azalaraq 115,52 dollar olub.

"Bloomberg" yazır ki, Hörmüzün bağlı qalması dünya enerji bazarını o qədər həssas vəziyyətə salıb ki, tərəflərdən hər hansı birinin "sərt bəyanatı" neftin qiymətinin artıb və ya azalmasına səbəb olur.Dünya bazarında neftin qiymətinin növbəti artım dalğası gözlənilir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, rəsmi Vaşinqton Rusiyaya neft ixracı üçün tətbiq etdiyi sanksiyanı mayın 16-na kimi aradan qaldırıb. ABŞ Prezidenti Konqresin qərarından asılı olmayaraq bu addımı ataraq Rusiyanın Ukraynaya qarşı mövqeyini yumşaltmağa çalışırdı. Lakin rəsmi Moskvanın mövqeyində heç bir dəyişiklik baş verməyib. Əksinə, Rusiya gündə təxminən 1,5 milyon barel neft sataraq müharibəni davam etmək üçün vəsait əldə etdi. Lakin Rusiya neftinin əsas alıcısı olan Hindistan ABŞ-ın sanksiyalarının davam edəcəyi təqdirdə Rusiya neftindən imtina etmək məcburiyyətində qalacaq.Hindistanın "Indian Oil Corp" və "Bharat Petroleum Corp" şirkətləri Rusiyadan gündə 2 milyon barel neft alırdılar. Bu şirkətlər artıq Qərbi Afrika ölkələri və ABŞ ilə razılıq əldə ediblər.

Bu arada ABŞ Prezidentinin Çin səfərini təhlil edən ABŞ mətbuatı yazır ki, əslində Rusiya ilə Ukrayna və İran ilə ABŞ arasında davam edən müharibə Çin üçün sərfəlidir. Rəsmi Pekin hər iki münaqişədən istifadə edərək olduqca ucuz qiymətə neft alır. Buna görə də Prezident Trampın Çin lideri Si Cinpin ilə danışıqları heç də asan olmayacaq. Lakin analitiklər vurğulayır ki, bu səfərin nəticələri mütləq dünya enerji bazarına təsir göstərəcək. Bu təsirin mənfi yoxsa müsbət olacağını isə zaman göstərəcək.

*N.BAYRAMLI*

# Asiya İnkişaf Bankından "yaşıl investisiya"

## Bank ölkəmizdə maliyyə sektorunun inkişafına dəstək verəcək

Mərkəzi Bankın (MB) sədrinin birinci müavini Əliyar Məmmədyarov Asiya İnkişaf Bankının (AİB) Sektorlar üzrə 3-cü departamentinin baş direktoru Kristin Enqstromun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüş çərçivəsində Mərkəzi Bank və AİB arasında mövcud əməkdaşlığın cari vəziyyəti, maliyyə sektorunda həyata keçirilən islahatlar, yaşıl maliyyələşmə, eləcə də maliyyə sektorunun inkişafını dəstəkləyən birgə təşəbbüslər müzakirə olunub. Həmçinin, Mərkəzi Bank və AİB arasında əlaqələrin inkişafı və texniki yardım imkanları ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

"Yaşıl maliyyə" dayanıqlı inkişafı və ətraf mühitin qorunmasını dəstəkləyən çoxsaylı maliyyə əməliyyatlarını və maliyyə məhsullarını (kredit, istiqraz, səhm və s.) özündə birləşdirir. Yaşıl maliyyənin digər əsas təməl prinsipləri ekoloji təhdidlərin azaldılması, iqlim risklərinin idarə olunması və yaşıl texnologiyalara investisiyanı stimullaşdırmaqdır. Bu, maliyyə aləti bərpaolunan enerji, enerji effektivliyi, nəqliyyat, su idarəetməsi və tullantı emalı kimi sahələrdə daha çox tətbiq edilir. Ümumilikdə, "yaşıl maliyyə"nin inkişaf etdirilməsi üçün bir sıra kanallar mövcuddur ki, onların sırasında dövlət-özəl sektor əməkdaşlığı, banklar tərəfindən beynəlxalq təşkilatlardan vəsaitlərin cəlb edilməsi, xarici maliyyə institutlarının investisiyaları və müxtəlif maliyyə alətləridir.

### Yeni maliyyə çərçivəsi - "Yaşıl Taksonomiya"

"Yaşıl maliyyələşmə" Azərbaycanda müasir iqtisadi inkişafın əsas prioritetlərindən birini təşkil edir və Mərkəzi Bank bu istiqamətdə yeni institisional çərçivə hazırlamaqla dayanıqlı maliyyə infrastrukturu yaratmaqdadır. MB tərəfindən ötən il təsdiqlənmiş "Yaşıl Taksonomiya" sənədinin əsas hədəfləri sırasında maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və digər tərəfdaşlarla birgə maliyyə-bank, sığorta və digər iqtisadi sektorlar üzrə "yaşıl fəaliyyət"in artırılması nəzərdə tutulur. Taksonomiya baxışlarına əsasən, bank və maliyyə bazarının iştirakçıları dünyada tətbiq edilən "yaşıl maliyyə" alətlərinin ölkəmizdə tətbiqində səy və məsuliyyətlərini artıracaq. Yaxın illərdə bank sektoru fəaliyyətini daha çox "yaşıl maliyyə" təminatlarına yönəltməli olacaq. "Yaşıl maliyyə" arxitekturasının qurulması isə böyük həcmdə sərmayələr tələb edir.

Hazırda dünya bank sektoru bu vəsaitləri müxtəlif alətlərlə təmin etməyə çalışır. Həmin alətlərdən biri "yaşıl istiqrazlar"dır. Azərbaycanın bank sistemi üçün də bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. "Yaşıl istiqrazlar" maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf muhitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir. Ekoloji və iqlim layihələrini dəstəkləmək üçun sabit gəlirli bir maliyyə aləti olan "yaşıl istiqraz" enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizədə öz səmərəsini verməkdədir.

Yeri gəlmişkən, ötən həftə MB-nın Maliyyə Sisteminin Yaşıllaşdırılması üzrə Mərkəzi Banklar və Nəzarət Qurumları Şəbəkəsinə (NGFS) tamhüquqlu üzv qəbul olunması bu istiqamətdə yürüdülən iradəli siyasətin uğuru hesab edilə bilər. Bu üzvlük Azərbaycanın Mərkəzi Bankının qlobal şəbəkənin tamhüquqlu üzvü kimi işçi qruplarının fəaliyyətində iştirakına geniş imkanlar yaradacaq, iqlim maliyyəsi üzrə ssenarilərin hazırlanmması və təhlili, "yaşıl maliyyə" layihələrində təmsil olunmasını təmin edəcək, dayanıqlı maliyyə gündəliyinin, o cümlədən "yaşıl taksonomiya"nın tətbiqini genişləndirəcək.




### "Ölkə Tərəfdaşlığı Strategiyası" və yeni hədəflər

"Yaşıl maliyyə" proqramında Azərbaycanın ən yaxın tərəfdaşlarından biri də Asiya İnkişaf Bankıdır. Ötən ilin sonlarında AİB-in icraçı direktoru Masato Kandanın ölkəmizə səfəri çərçivəsində Azərbaycanla AİB arasında növbəti əməkdaşlıq proqramı - "Ölkə Tərəfdaşlığı Strategiyası"nın rəsmi icrasına start verilib. Yeni strateji konsepsiya Bakı metrosunun genişləndirilməsi, Bakı şəhəri və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun, içməli su təchizatının, su itkilərinin azaldılması və yağış sularının idarə edilməsi sahələrində həyata keçiriləcək layihələrdə, eləcə də dəmir yolu infrastrukturunun modernləşdirilməsi və digər infrastruktur layihələrini əhatə edir.

Strategiya, həmçinin, 4 il ərzində AİB-lə Azərbaycan Respublikası arasında əməkdaşlıq əsasən bərpaolunan enerji və "yaşıl nəqliyyat" sahələrini əhatə edəcək. Bu istiqamətdə, AİB tərəfindən növbəti illər ərzində regional nəqliyyat sistemləri vasitəsilə regional əməkdaşlığın gücləndirilməsi, habelə "Şimal-Cənub" və Orta Dəhliz çərçivəsində dəmir yolu sektorunda nəzərdə tutulan işlərin tamamlanması və Bakı şəhərində mobilliyin artırılmasında hökumətə dəstək verilməsi nəzərdə tutulur. M.Kanda vurğulayıb ki, Bank Ətraf Mühit Naminə Proqramı çərçivəsində enerji subsidiyası islahatlarını dəstəkləməyə davam edəcək, yaşıl dövlət xərcləri proqramlarının işlənib hazırlanması və maliyyələşdirilməsində Azərbaycanın potensial tərəfdaşı olacaq.

Xatırladaq ki, mayın 5-də Özbəkistanın Səmərqənd şəhərində keçirilən Asiya İnkişaf Bankının (AİB) İllik Toplantısı çərçivəsində Azərbaycanın iştirakı ilə 2026-2031-ci illər üzrə ticarətin inkişafı və "yaşıl artım" layihəsi təsdiqlənib. Asiya Bankı Azərbaycanın da təmsil olunduğu layihənin maliyyələşdirilməsində əsas donor kimi dəstəyini ifadə edib.

*E.CƏFƏRLİ*

# NATO-nun gələcəyi sual altındadır?

**İranla müharibə ABŞ-ın Avropa müttəfiqləri ilə münasibətlərində müəyyən soyuqluq yaradıb. Bu səbəbdən də Birləşmiş Ştatlar NATO-nu tərk edəcəyi barədə mesajlar verir. Bugünlərdə ABŞ dövlət katibi Marko Rubio “Fox News” telekanalına verdiyi müsahibədə də deyib ki, İranla münaqişə zamanı bəzi NATO müttəfiqlərinin Vaşinqtona hərbi bazalara giriş verməkdən imtina etməsi alyansın mövcudluğunun səbəbini sual altına alır: “NATO tərəfdaşları sizə bu bazalardan istifadəni rədd etdikdə, onda ittifaqın mənası nədir? Nəzərə alaq ki, NATO-nun Amerikaya fayda verməsinin əsas səbəbi məhz bu baza hüquqlarıdır. İndi, məsələn, İspaniya tərəfindən bizə bu hüquq verilməsə nə etməliyik? Məlum olur ki, onlar yalnız istədikləri zaman müttəfiqdirlər”. Onun sözlərinə görə, ABŞ-ın NATO ilə bağlı “tamamilə qanuni sualları” var: “İranla yaşadığımız münaqişə zamanı bu bazalara girişimizdən məhrum edilə biləcəyimiz təqdirdə, bizim üçün üstünlüyü baza hüquqları olan bir ittifaqın mənası nədir? Bəs niyə oradayıq - yalnız onları müdafiə etmək üçün, öz milli maraqlarımızı irəli sürmək üçün deyil? Bu, müzakirə edilməli olan tamamilə qanuni bir sualdır, xüsusən də xərclərin üçdə ikisini ödədiyimizi nəzərə alsaq”.**

## Tramp müttəfiqlərin mövqeyindən məyusdur

Xatırladaq ki, ötən ay ABŞ Prezidenti Donald Trampın Ağ Evdə NATO-nun Baş katibi Mark Rutte ilə görüşü də Vaşinqtonun İranla müharibə səbəbindən hərbi alyansın üzv dövlətləri ilə münasibətlərinin kəskinləşməsi fonunda keçirilmişdi. Qapalı keçirilən görüşdə ABŞ-NATO münasibətləri, İranla əldə olunan atəşkəs və digər məsələlər müzakirə edilmiş, Donald Tramp müttəfiqlərin mövqeyindən məyus olduğunu demişdi. ABŞ Prezidenti sosial media hesabında paylaşım edərək yazmışdı: “NATO ehtiyac duyduğumuz zaman yanımızda deyildi və yenidən ehtiyac duysaq da, olmayacaq”.

Hələ İranla müharibənin gedişində Donald Tramp NATO müttəfiqlərini kəskin tənqid edib və ABŞ-ın alyansdan çıxa biləcəyinə dair fikirlər səsləndirib. Lakin bundan əvvəl də NATO daxilində müəyyən ziddiyyətlər var idi. Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra üzv ölkələr qarşısında hərbi xərclərin artırılmasını bir tələb kimi qoyub. Bu tələbin səbəbi alyansın xərclərinin böyük hissəsinin ABŞ-ın “çiyinlərində” olması ilə bağlıdır. Bundan sonra bir sıra Avropa ölkələri müdafiə xərclərini artırıblar. Ancaq problem tam həllini tapmayıb. Bunun ardınca, Tramp İranla müharibədə NATO müttəfiqlərini ABŞ-a dəstək verməməkdə ittiham edib. Məsələn, Parisin ABŞ hərbi təyyarələrinin Fransanın hava məkanı ilə İsrailə uçmasına icazə verməməsi Ağ Ev rəhbərini hiddətləndirmişdi. Trampın sözlərinə görə, Fransa bu addımları ilə İrana kömək göstərib. O, ABŞ-ın bunu unutmayacağını da söyləyib.

## Marko Rubio hesab edir ki, Vaşinqton alyansla bağlı iradlarında haqlıdır



## Müttəfiqlər Vaşinqtona niyə dəstək vermədi?

ABŞ-ın Hörmüz boğazında gəmiçiliyi bərpa etmək üçün koalisiya yaratmaq cəhdləri də nəticə vermədi. Amerikanın tərəfdaşlarının bəziləri koalisiyaya qoşulmaqda tərəddüd edib, bəziləri isə “yox” cavabı verib. Mənbələr bildirib ki, Tramp administrasiyası Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Avstraliya, Kanada, Körfəz ölkələri və İordaniyanı belə bir ittifaqa daxil etməyə çalışıb. ABŞ eyni təkliflə Yaponiya və Cənubi Koreyaya da müraciət edib. Lakin Almaniya, İtaliya və Yaponiya liderləri bölgəyə dəniz gəmiləri göndərməyi istisna ediblər. Fransa da Vaşinqtona müsbət cavab verməyib. Bundan əvvəl Avropa İttifaqının ali nümayəndəsi Kaya Kallas Aİ xarici işlər nazirlərinin Hörmüz boğazına hərbi gəmilər göndərməkdən imtina etdiyini açıqlamışdı. Donald Tramp isə NATO müttəfiqlərini Hörmüz boğazının təhlükəsizliyini təmin etməkdən imtina etdikləri təqdirdə “çox pis bir gələcək” ilə üzləşə biləcəkləri barədə xəbərdar edərək, onları Avropanın əsas dəniz dəhlizini yenidən açmaq üçün Amerikanın səylərini dəstəkləməyə çağırmışdı.

Xarici medianın məlumatlarına görə, Avropada artan müqavimət bir neçə səbəbdən qaynaqlanıb: müharibədən əvvəl ABŞ-la kifayət qədər məsləhətləşmələrin aparılmaması, Vaşinqtonun məqsədləri ilə bağlı qeyri-müəyyənlik və Trampın müttəfiqlərə qarşı sərt ritorikası. Avropalı yüksək vəzifəli müdafiə rəsmisinin sözlərinə görə, əsas problem ABŞ-ın hərəkətləri ilə bağlı aydınlığın olmaması və münaqişə başlamazdan əvvəl demək olar ki, heç bir ciddi müzakirələrin aparılmamasıdır. Digər tərəfdən, NATO-nun Şərq cinahında yerləşən ölkələr üçün prioritet məsələ öz ərazi müdafiəsinin təmin olunmasıdır.

## Ankara sammiti vəziyyətə aydınlıq gətirə bilər

Bütün bunların fonunda alyansın 7-8 iyul tarixlərində Ankarada keçirilməsi planlaşdırılan sammitinin əhəmiyyəti İran ətrafındakı gərginlik və sonradan Vaşinqtonun NATO-ya qarşı sərt tənqidləri fonunda daha da artıb. İlin əvvəlində Türkiyə paytaxtında keçirilməsi planlaşdırılmış sammitdə müdafiə imkanlarının gücləndirilməsi və modernləşdirilməsi, kiber və enerji təhlükəsizliyi, vacib infrastrukturun qorunması, transatlantik münasibətlərin gələcəyi və müdafiə xərclərinin bölüşdürülməsi kimi mövzuların müzakirə ediləcəyi gözlənilirdi. Lakin “Epik qəzəb” əməliyyatının başlanması və Ağ Evin NATO müttəfiqlərindən gözlənilən dəstəyi təmin edə bilməməsi sammitin gündəliyini kökündən dəyişdirib. Belə ki, İtaliya bu yaxınlarda ABŞ-ın Siciliyadakı hərbi bazaya təyyarələrin enməsi tələbinə mənfi cavab verib, İspaniya isə müharibə ilə əlaqəli əməliyyatlar üçün öz bazalarından və ya hava məkanından istifadəyə icazə verməkdən imtina edib. Böyük Britaniya, Fransa və Almaniya da daxil olmaqla digər müttəfiqlər rollarını regional tərəfdaşlara müdafiə dəstəyi ilə məhdudlaşdırır və gərginliyin azaldılmasına çağırırlar.

Şimali Atlantika Alyansının dəstəyinin olmadığını tənqid edən ABŞ Prezidenti Donald Tramp Vaşinqtonsuz NATO-nu “kağız pələng” adlandıraraq belə bir sual vermişdi: “Əgər onlar bizim tərəfimizdə deyillərsə, biz niyə onların yanında olmalıyıq?”. Bütün bunların fonunda ABŞ dövlət katibi Marko Rubionun “FOX News” telekanalına verdiyi müsahibədə səsləndirdiyi fikirlər də NATO-nun gələcəyi ilə bağlı sualları artırır.

Beləliklə, Ağ Evin mövqeyi hərbi alyansın gələcəyini əhəmiyyətli dərəcədə aktuallaşdırıb və onun yeni fəaliyyət istiqamətləri iyul ayında Türkiyə paytaxtında müəyyən ediləcək. Digər tərəfdən, Vaşinqtonun sərt yanaşması Avropa ölkələrini öz müdafiə imkanlarının gücləndirilməsi barədə düşünməyə sövq edir.

*Nardar BAYRAMLI*

# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun “Dirilmə” romanı haqqında

əvvəli ötən saylarımızda

Nə qərətdə əli, nə də qətldə qəsdi olan Maslova andlı iclasçıların bircə texniki səhvi üzündən əməl ortaqlarıyla birgə katorqa cəzasına məhkum olunur. Zavallı iclas salonunda fəryad qoparır, ancaq səsi nəinki uzaqlara, heç yaxına da çatmır.

Məhkəmədən sonra Nexlyudov evlənməyə hazırlaşdığı Missi Korçaginanın görüşünə gedir. Onlar artıq nişanlı kimidirlər, Missi səbirsizliklə Nexlyudovdan konkret təklif gözləyir. Evə qayıdanacan məhbus Katyanın qara gözləri onun gözünün qarşısından, fəryadı qulağından çəkilmir. Bu günkü tamaşadan sonra burnunun ucunda olan ailə xoşbəxtliyi ona əlçatmaz-ünyetməz görünür. Dmitri İvanoviç sidq ürəkdən dua edib Allahdan kömək istəyir, içində mürgüləyən tanrısı vicdanının fəryadına oyanıb onun səsinə səs verir.

Bundan sonra Nexlyudov qəlbində hər cür fədakarlığa hazır, hər növ qəhrəmanlığa qadir bir gücün baş qaldırdığını duyur. Bu güc - Tanrı qüdrətidir, bu qüdrət ona deyir ki, əgər məni razı salmaq istəyirsənsə, həyatının səmtini dəyişməlisən, səni gözləyən hər cür dünyəvi rahatlıqdan, maddi rifahdan, tox yaşayışdan, isti ailə ocağından, parlaq karyeradan, fani dəbdəbədən əl çəkib, Katyuşanı zindandan qurtarmalı, onunla evlənməlisən.

Nexlyudov qapılar döyüb Maslovayla görüş icazəsi alır, ondan bağışlanmağını diləyib günahını yumaq istədiyini deyir. Fəqət Katyuşa qabaqkı adam deyil, həyat onu daşdan-daşa çalıb sındırıb, onu öz taleyinə biganə, sevgiyə umsunmayan, sevincə laqeyd satlıq mala, iradəsiz köləyə, ruhsuz bədənə çevirib. Ömrünü baltalamış adamı belə güclə tanıyır, yəni yazıq təkcə sevgisindən yox, nifrətindən də yarımayıb. Qadın öz halından nəinki utanmır, üstəlik, kişilərin ona möhtac olmasıyla arabir qürurlanır da. Katyuşaya knyazın hətta tövbəsi də gərək deyil, indi fəlakətlərinin baisindən alacağı on rubl ondan ötrü yüz tövbədən dəyərlidir. Ötən illər ərzində qadın öz qiymətini də unudub, ona həmişə insan çədarları, can dəllalları qiymət qoyublar.

Şeytan knyaza pıçıldayır ki, bu ölü cəmdəyi diriltmək mümkün olmayacaq, üzü üzlər görmüş məxluqa qolundan qopan qədər pul ver, dönüb arxana baxmadan ondan uzaqlaş. Ani tərəddüddən sonra Dmitri şeytanı beyninin komanda mərkəzindən qovur, hərçənd onun dediyi haqlı sözü də qəribliyə salmır. Prosesin çətinliyi Nexlyudovun gözünə dursa da, daha iş işdən keçib, geriyə yol qalmayıb. Katyuşanın faciəsinə aparan günahı indi onun varlığında inqilab eləyib vicdanını taxta çıxarıb, indən belə onu taxtından salmaq, mənliyini devirmək müşkül görünür.

***

Knyazın türməyə ikinci gəlişində Katya Nexlyudovu sərxoş qarşılayır, onunla küçə adamına xas tərzdə kobud danışır. Nexlyudov onu səbrlə dilə tutub qurtuluşu üçün lazım olan sənədi Maslovaya imzalatdır. Sonra knyaz Katyuşaya təntənəli şəkildə elan eləyir ki, günahını yumaq üçün Allahın hüzurunda onunla evlənməyə özünü borclu sayır, niyyəti tam ciddidir. Sərxoş Katyuşa yenə hərzə-hərzə danışıb Nexlyudovu acılayır, onun gecikmiş də olsa xoş niyyətini top-tüfənglə qarşılayır.

Şeytan insanın varlığında hələ miyyəti elə alanda həmişə belə olur: insan əvvəl dostuna-doğmasına, halına yanana, xeyirxahına qənim kəsilir, sonra da öz canına - dəxli yoxdur hansı formada - qəsd eləyir. Katyuşanın Nexlyudova üsyanı da bu mənada tam şeytani bir qiyamdır, Allahın qüdrətiylə dirilməkdən, daş altından boy göstərən ot kimi dirçəlməkdən imtina, faktiki intihardır:

“Bu Allahı haradan tapıb çıxardınız? Siz hansı Allahdan danışırsınız? Allahı gərək o vaxt yada salaydınız, - Katyuşa çığırdı. - Əl çək yaxamdan! Mən katorqa dustağı, sən ağa, bura sənin yerin deyil. Mənim əlimlə özünü qurtarmaq istəyirsən? Bu dünyada məndən kamını almısan, indi də mənim sayəmdə o dünyada yerini rahatlamaq istəyirsən? Sənin özündən də zəhləm gedir, gözlüyündən də, o piylənmiş murdar sir-sifətindən də! Mənimlə evlənmək sevdan heç vaxt baş tutmayacaq. Ondansa özümü asaram. Bu da mənim cavabım!..”

Yəni nə özüm gəlirəm Allah yoluna, nə də sənin gəlməyinə yol açıram. Şeytana mübtəla olmaq, iblisə kəbinlənmək necə olur bəs?

Ancaq knyaz Nexlyudov da inadından dönənə oxşamır, özünün də iştirakıyla yol verilmiş məhkəmə səhvinin düzəldilməsi, günahsız dustağın məhbəsdən qurtulması uğrunda cəhd göstərməkdən usanmır, səlahiyyətli şəxslərin ayağına getməkdən utanmır, vəkillərə pul xərcləməyə qızırğalanmır. Bu proses boyunca məhkəmələrin ədalətsiz, hökumət qapısında rəhm aramağın faydasız, hakimlərin mənəviyyatsız olduğunu bütün çılpaqlığıyla görəndən sonra özünün andlı məhkəmə iclasçısı statusundan da imtina eləyib müəllifin sosial-siyasi ideyalarının ruporuna çevrilir. Hər dəfə türmə dəhlizləriylə addımlayanda Nexlyudov burada yatan günahsız əzabkeşlərə sarsıntı qarışıq mərhəmət, onları cəzalandıran zalım çinovniklərə dəhşət yüklü qəzəb, baş verənləri acizanə şəkildə seyrə dalan özünə münasibətdə isə xəcalət hissi keçirir. Bütün bunları gördükcə tutduğu müqəddəs işin təmtərağından, mənəvi dirçəlişin ilahi sevincindən qəlbində əsər qalmır, bircə bunu bilir ki, Maslovanı haqsız cəzadan qurtarmaq, əgər razılıq verərsə, onunla evlənmək niyyətindən axıracan vaz keçməyəcək, nə qədər zülm-zillət çəksə də, bu ağrılı-əzablı yoldan əsla dönməyəcək.

***

Yuxarılar da, aşağılar da Nexlyudovu başa düşmürlər, onun işini-gücünü, karyerasını, sərvətini, təsərrüfatını, kandarında durduğu parlaq gələcəyini buraxıb taleyi çoxdan bəllənmiş bir fahişənin dalınca sürünməyi hamıya qəribə gəlir, toplumа, hətta öz doğmalarına dəlilik-divanəlik, səfehlik-sarsaqlıq kimi görünür. Onun misilsiz fədakarlığı, cəmiyyətin küllüyünə atılmış bir qadının qurtuluşu - həm cisminin, həm də ruhunun xilası naminə hər şeyini qurban verməsi bir kimsədə bu əməllərin yiyəsinə rəğbət oyatmır, bir kimsənin təqdirinə rəvac vermir. Belə çıxır ki, sən hansısa qeyri-ordinar xeyirxah addımınla, haqqı dost tutmağınla istər-istəməz cəmiyyətə meydan oxuyursan, adamlara heç də yaxşı insan olmadıqlarını xatırladırsan, doğru-dürüst yaşamadıqlarını onların üzünə vurursan, bununla özün də bilmədən, istəmədən məhşərə qədər sürəcək böyük savaşın qarşı duran iki cəbhəsindən birində mövqeyini bərkidirsən. Ulu Nizami bir aşiqanə qəzəlində üzünü Haqqa tutub elə bunu deyirdi: “Sənə dost olmağıma cümlə şəhər düşmən olub...” Nexlyudov böyük savaşın növbəti sərkərdəsi kimi meydana çıxmağa artıq hazırdır.

Növbəti addım paytaxt Peterburqa yollanmaqdır, çünki Maslovanın işinə senatda baxılacaq. Ondan da bir xoş nəticə hasil olmasa, vəkilin məsləhət gördüyü kimi, tək ümid padşahın adına əfv ərizəsi yazmağa qalır. Padşahın ətəyindən də əli üzülsə, knyaz Dmitri Katyuşanın ardınca Sibirə gedəcək, orada da onu tək qoymayacaq.

davamı növbəti sayımızda



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Sevginin başladığı ən müqəddəs ünvan!



## Cəmiyyətin gücü ailədən başlayır...

**Sevgi, mərhəmət, hörmət, anlayış və fədakarlıq kimi ali hisslər ilk dəfə məhz ailə ocağında formalaşır. Ailə yalnız eyni soyadı daşıyan insanların bir araya gəlməsi deyil, çətin anlarda bir-birinə dayaq olan, uğurları birlikdə sevincə çevirən, həyatda insanı ayaqda saxlayan ən güclü mənəvi bağdır. Sağlam ailələrin qurulduğu cəmiyyətlərdə həm mənəvi dəyərlər qorunur, həm də gələcək nəsillər daha sağlam, savadlı və vicdanlı yetişir.**

**Bu gün dünyamız sürətlə dəyişsə də, texnologiya həyatımızın hər sahəsinə nüfuz etsə də, insanın ən böyük ehtiyacı yenə də doğmalarının sevgisini hiss etmək, anlayış görmək və özünü güvəndə hiss etdiyi bir ailəyə sahib olmaqdır. Çünki ailə insanın ruhunu isidən ən dəyərli limandır. Bütün cəmiyyətlərdə ailə mövzusu daim aktual problemlərdən biri hesab olunur. Etiraf edək ki, cəmiyyətdə hansısa dəyişikliklər baş verərsə, bu, ilk növbədə ailələrə təsir göstərir. Bir sözlə, kiçik sosial qrup olmasına baxmayaraq, ailə və onun qorunması məsələsi hər zaman aktualadır.**

## Avropa dəyərlərinin cəmiyyətimizə təsiri...

Bəzən sosial şəbəkədə bir qrup şəxs Azərbaycanda ailə institutunun yararsız olması ilə bağlı təbliğat aparır. Onlar bildirirlər ki, həm ailə, həm də milli-mənəvi dəyərlər cəmiyyətin inkişafına ayaq bağı olur, bundan qurtulmaq lazımdır. Onların iddialarına görə, ailə institutu köhnəlmiş bir ənənədir. Bu xəttin tərəfdarları özlərini müxtəlif cinahların, hərəkatların nümayəndəsi kimi təqdim edirlər. Bir qrup bildirir ki, feministdirlər, digər bir qrupu özlərini liberal adlandırır. Həmin şəxslər Avropa ölkələrindəki ailələri misal gətirirlər. Lakin anlamırlar ki, Avropanın bütün dəyərlərini olduğu kimi öz cəmiyyətimizə gətirə bilmərik. Bu, tərəflər arasındakı problemlərə, ailələrin dağılmasına yol aça bilər.

Ailə quran cütlüklərin yaşadığı problemlər arasında iqtisadi faktorlar mühüm rola malikdir. Münasibətlərə xələl gətirən iqtisadi amillərə-işsizlik, həyat səviyyəsinin aşağı olması və yoxsulluğu qeyd edə bilərik.

## Gender bərabərliyi...

Çox vaxt ailədaxili münasibətlərin korlanmasında gender bərabərliyinin qorunmaması vacib rol oynayır. Lakin əksər hallarda gender bərabərliyi ilə bağlı yanlış təbliğat aparılır. Bu da gender bərabərliyindən danışarkən yalnız qadın hüquqlarının pozulması barədə informasiyalardır. Ancaq unutmamalıyıq ki, gender bərabərsizliyi, eyni zamanda, kişi hüquqlarının pozulması deməkdir. Düzdür, qadınların iqtisadi cəhətdən gücləndirilməsi ailə münasibətlərinə təsir edir. Ailə büdcəsinə öz töhfələrini verməklə bərabər, qadınların özünə inamı artır, ailədə iqtisadi cəhətdən asılı olmurlar. Lakin təəssüflər olsun ki, ölkəmizdə gender bərabərliyi adı altında yanlış təbliğat aparılır. Ailədə qadınlar kimi kişilər də kifayət qədər fəallıq nümayiş etdirirlər. Amma bəzi hallarda qadınların kişiləri istismar etməsinin də şahidi oluruq. Məsələn, gününü alış-verişlərdə, gözəllik salonlarında keçirməyi sevən qadınlar heç bir yerdə işləmədikləri halda kişidən maddi tələbatını ödəməyini israr edir. Bunu isə kişilərin bir növ istismarı adlandırmaq olar.

## Sosial şəbəkələr ailələri necə məhv edir?

Aparılan araşdırmalara görə, son illər bütün ölkələrdə sosial şəbəkələrdən düzgün istifadə etməmək ailə münasibətlərinə mənfi təsir edir. Dünyada qeydə alınan boşanmalarda Vatsap yüzdə 40 nisbətində rol oynayır. İkinci yerdə Feysbuk, üçüncü yerdə isə digər sosial şəbəkələr gəlir. Yeniyetmələrin, evli qadınların evdən qaçması artıq “dəb” halına çevrilib. Bu kimi hadisələrin kökündə dayanan səbəblər araşdırılanda isə məlum olur ki, ailədən qəfil uzaqlaşma sosial şəbəkədə baş tutan hansısa tanışlıqla bağlıdır. Bu baxımdan sosial şəbəkələrin ailə münasibətlərinə mənfi təsiri, boşanmalara yol açması danılmazdır.

Yeri gəlmişkən, bu gün Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Bu gün BMT Baş Assambleyası tərəfindən 1993-cü ildə qəbul edilib. Bu gün insanlığın ən müqəddəs dəyərlərindən biri olan ailənin gücünü, birliyini və cəmiyyətin təməl sütunu kimi daşıdığı böyük məsuliyyəti xatırladan xüsusi bir gündür. Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Respublikamızda Ailə bayramının qeyd olunması dövlət qadın siyasətinin əyani təcəssümüdür. Ailə gününün qeyd olunmasında məqsəd isə planetimizdə yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltmək məqsədi daşıyır.

*Yeganə BAYRAMOVA*

# “Nar” WUF13 çərçivəsində inklüziv təcrübə proqramı iştirakçılarını təltif edib

Sərfəli mobil operator “Nar” “İmkanlar hər kəs üçün” layihəsi çərçivəsində həyata keçirilən inklüziv təcrübə proqramını başa vuran iştirakçılar üçün sertifikat təqdimetmə mərasimi təşkil edib. Proqramda iştirak edən 25 təcrübəçiyə sertifikatlar təqdim olunub.

Sertifikatları “Nar”ın baş icraçı direktoru Özgür Genc, İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Elnarə Ənsari və BMT-nin Məskunlaşma Proqramının Təbliğat və Layihələr üzrə nümayəndəsi Məleykə Tağızadə təqdim ediblər.

Sertifikatları təqdim edən Özgür Genc inklüzivliyin cəmiyyət və iş mühiti üçün əhəmiyyətindən danışaraq bildirib ki, “Fərqli bacarıqlara və həyat təcrübələrinə malik insanların peşəkar inkişafına dəstək olmaq bizim üçün böyük önəm daşıyır. İnanırıq ki, inklüziv iş mühiti həm insanlar, həm də şirkətlər üçün daha güclü və dayanıqlı gələcəyin formalaşmasına töhfə verir”.

Qeyd edək ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən proqram iştirakçıların real iş mühitinə inteqrasiyasını dəstəkləməklə onların peşəkar və praktiki bacarıqlarının inkişafına töhfə verib. Layihə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq məqsədilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və BMT-nin Məskunlaşma Proqramının birgə təşəbbüsü olan Azərbaycan Şəhərsalma Kampaniyası çərçivəsində həyata keçirilir.




“Nar” sosial məsuliyyət strategiyası çərçivəsində inklüzivliyin təşviqinə xüsusi önəm verir və bu istiqamətdə həyata keçirdiyi təşəbbüslərlə cəmiyyətdə bərabər imkanların genişlənməsinə dəstək göstərməyə davam edir.

# Təbiətin rənglərini soldurmayaq...

## İqlimi qorumaq həyatımızı qorumaqdır!



Bəzən tropik meşələrin dərinliklərində rütubətli və isti hava insanı yaşıl dünyanın sirli qucağına çəkir. Bəzən də qütblərin buz kimi sərt küləkləri həyatın nə qədər dözümlü və möcüzəli olduğunu xatırladır. İqlim haqqında düşündükcə insan anlayır ki, təbiət sadəcə yaşadığımız məkan deyil, həm də həyatımızın rəngarəng tablosudur. Çünki mavi okeanların sonsuzluğu, yaşıl meşələrin sakitliyi, qızılı səhraların ehtişamı və qarla örtülmüş dağların əzəməti bir-biri ilə harmoniyada birləşərək dünyanı canlı və heyranedici bir sənət əsərinə çevirir.

Bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biri iqlim dəyişikliyidir. Qlobal istiləşmə, təbii fəlakətlər, planetdə dəyişən hava şəraiti - bütün bunlar Yer kürəsində iqlimin pisləşməsinə gətirib çıxarır. Nəticədə insanların qida və həyat təhlükəsizliyi, təbii ehtiyatların vəziyyəti və dövlətlərin tarazlı inkişafına mənfi təsir göstərir.

Mayın 15-də bütün dünya Beynəlxalq İqlim Gününü qeyd edir. Bu günün təsis edilməsində əsas məqsəd dünyanın dayanıqlı inkişafı üçün iqlim dəyişmələri ilə mübarizəyə beynəlxalq ictimaiyyətin cəlb edilməsindən ibarətdir.

**Orta temperatur 0,8 dərəcə artıb**

Təkcə son 35-36 ildə planetdə iqlim dəyişikliyi kəskin surətdə sürətlənib. Demək olar ki, hər il yeni temperatur rekordları müəyyən edilir. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin (IPCC) Ekspertlər Qrupunun qiymətləndirmə hesablarına görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə artıb. Temperaturun artması əsasən antropogen amillərlə bağlıdır.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin hesablamalarına görə, istixana qazlarının emissiyalarının azaldılması ilə bağlı heç bir tədbir görülməzsə, XXI əsrdə dünyanın orta illik temperaturu ən azı 3-4 dərəcə yüksələ bilər.

**Mühüm saziş**

Planetdə geridönməz iqlim dəyişikliyinə səbəb olan əsas problemlər sırasında atmosferdə istixana qazlarının konsentrasiyasının artmasıdır. İlk dəfə həmin fenomen dünya səviyyəsində 1992-ci ildə - Rio-de-Janeyroda keçirilən BMT-nin ətraf mühit və inkişaf məsələlərinə həsr edilmiş “Yer kürəsi sammiti” konfransında müzakirə edilib. Dünyanın 180-dən çox ölkəsinin, o cümlədən keçmiş SSRİ ölkələri nümunəsində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını (FCCC) imzaladılar. Həmin saziş atmosferdə istixana qazlarının Yer kürəsinin iqlim sisteminə olan qlobal antropogen təsirli təhdid etməyən səviyyədə sabitləşdirməyə yönəlmiş dövlətlərin fəaliyyətlərinin ümumi prinsiplərini müəyyən etdi.

**Azərbaycan böyük hədəflər müəyyən edib**

Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə konvensiyanın Kioto protokolunu ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Ölkəmiz Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edib. Paris Sazişi ölkələrin təqdim etdiyi Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə əsasən öhdəliklərini müəyyən edir.

Azərbaycan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədində baza ili (1990) ilə müqayisədə 2030-cu ildə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdü. 2021-ci ilin noyabrında Şotlandiyanın Qlazqo şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 26-cı konfransında Azərbaycan qlobal səylərə öz töhfəsini vermək məqsədilə yeni hədəfli çıxış edərək 2050-ci ilə qədər əlavə könüllü şəkildə iqlim emissiyalarını 40 faizədək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə “netto sıfır emissiya” zonasının yaradılmasını bəyan edib. Eyni zamanda, ağıllı şəhər/ağıllı kənd konsepsiyasının reallaşması və bu ərazilərdə “Yaşıl Enerji Zonası”nın yaradılması planları haqqında danışılıb.

İstilik effekti yaradan qazların qlobal emissiyalarında ən çox payı olan 5 ölkə bunlardır - Çin (28 faiz), ABŞ (15 faiz), Hindistan (7 faiz), Rusiya (5 faiz), Yaponiya (4 faiz). İstilik effekti yaradan qazların dünya üzrə ümumi emissiyalarında Azərbaycanın payı 0,15 faiz təşkil edir.

İqlimin qorunması hazırda bəşəriyyət qarşısında duran qlobal problemlərdən biridir. Qlobal istiləşmə, atmosfer qatında artan ozonun miqdarı, təbii fəlakətlər, planetin hava şəraitinin dəyişməsi - bunlar hamısı Yer kürəsinin iqliminin pisləşməsinə səbəb olur. Nəticədə insanların ərzaq, həyati və mülki təhlükəsizliyi sual altında qalır, təbii resursların vəziyyətinə və dövlətlərin dayanıqlı inkişafına mənfi təsir göstərir.

Müasir elm Yer kürəsinin temperaturunda daha çox artım olacağı halda faciəli iqlim dəyişikliyinin nə qədər tez bir zamanda baş verəcəyi sualına cavab tapa bilmir. Ancaq ekoloq və meteoroloqların fikrincə, bu dəyişikliyi bəşəriyyətin gücü ilə təxirə salmaq lazımdır.

İqlimin stabil saxlanılması planetin hər bir sakinindən asılıdır. Avtomobildən çox istifadə etməməklə, mənzillərdə işıqlandırma məqsədilə enerjiyə qənaət edən mənbələrdən istifadə ilə, ağac əkinlərinə və yaşıllıqların müdafiəsi aksiyalarına qoşulmaqla iqlimin qorunmasında pay sahibi olmaq olar. Təbiət insanlara hər zaman rənglərin, səslərin və həyatın ən möhtəşəm mənzərəsini bəxş edib. Buna görə də meşələrin yaşıl nəfəsini, dənizlərin mavi sonsuzluğunu, çiçəklərin rəngarəng gözəlliyini və buzlaqların sakit əzəmətini qorumaq hər bir insanın məsuliyyətidir. Hər kəsə kiçik görünən bu əməllər əslində Yer kürəsi üçün böyük məna ifadə edir...

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5332**
**Sifariş: 636**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova